“BİZ QAFQAZDA SÜLH VƏ SABİTLİK İSTƏYİRİK”

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bərpa işlərinə Azərbaycan büdcəsindən bu günə qədər yeddi milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırılan minimum büdcə 2,4 milyard ABŞ dolları olacaq.

Prezident İlham Əliyevin sözlərin görə, sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsinlər və sülh sazişinin layihəsi üzərində işləsinlər: “Bundan sonra sülh sazişinin tezliklə imzalanması daha asan olacaq”.

SƏHİFƏ 2-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

30 SENTYABR ŞƏNBƏ 2023 | 36 (4138) Qiyməti - 40 qəpik www.kaspi.az

AZƏRBAYCAN SUVERENLİYİNİ TAM BƏRPA ETDİ, “BOZ ZONA” LƏĞV OLUNDU

SEPARATİZMƏ ÖLDÜRÜCÜ ZƏRBƏ

Qarabağda yaranan yeni reallıq Azərbaycan dövlətinin, onun ali rəhbərliyinin, ordusunun ardıcıl hərbi və siyasi qələbələrinin nəticəsidir. 200 ildən artıq müddətdə əcdadlarımızdan bizə “miras” olaraq qalan Qarabağ problemi artıq mövcud deyil.

SEPARATÇI REJİMİN VARLIĞINA SON

Suveren ərazilərimiz olan Yuxarı Qarabağ bölgəsində 30 ildən artıq müddətdə fəaliyyətini davam etdirmiş separatçı rejimin varlığına bir neçə gün əvvəl rəsmən son qoyuldu. Qondarma qurumun rəhbərliyi bəyanatla çıxış edərək “Arsax”ın artıq olmadığı, 2024-cü ilin yanvarına kimi bölgədəki bütün fəaliyyət sisteminin tamamilə Azərbaycan dövlətinin nəzarətinə keçəcəyini bildirdi.

REİNTEQRASİYA İSTİQAMƏTİNDƏ ADDIMLAR

Separatçı rejimin buraxılmasından sonra reinteqrasiya prosesi istiqamətində mühüm addımlar atılmaqdadır. Erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi fəaliyyəti çərçivəsində ilkin mərhələdə erməni sakinlərin qeydiyyatının aparılması nəzərdə tutulur.

SƏHİFƏ 3-DƏ

SÜLH ÜÇÜN HEÇ BİR ƏNGƏL QALMADI



CİNAYƏTKARLAR CƏZASIZ QALMIRLAR

Artıq Qarabağdakı erməniləri girov saxlayanlar Azərbaycanın ədalət məhkəməsi qarşısında cavab verirlər. Azərbaycana qarşı dünya mediasında qara piarın əsas maliyyəçilərindən olan Ruben Vardanyan qaçmağa çalışarkən Laçın postunda saxlanılaraq Bakıya gətirilib.

“BİZİM CANIMIZDA QORXU YOX İDİ”

Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev: “Yaşananlar heç vaxt yaddaşdan silinməyəcək. Əgər bir hadisə qanla yazılıbsa, heç vaxt yaddaşdan silinməz”.

SƏHİFƏ 5-də

DEMOQRAFİK FƏLAKƏTƏ DOĞRU...

Açıqlanan rəsmi statistikaya istinad etsək, ölkədə boşanmalar çoxalır, nikahlar azalır, cins nisbəti pozulur, qocalma sürətlənir. Ekspertlər hesab edirlər ki, bu statistika həyəcan təbilidir.

SƏHİFƏ 11-də

“ƏSL MƏDƏNİYYƏT SAVAŞI BUNDAN SONRA BAŞLAYACAQ”

Xalq artisti, maestro Yalçın Adıgözəlov: “Klassik musiqi elitardır. Bu, heç vaxt kütlə mədəniyyəti ola bilməz. Keyfiyyətli tamaşa olsun, səviyyəsi yüksək, dekorları, musiqisi, səsləri gözəl olsun - görün zal dolur, ya yox”.

SƏHİFƏ 8-9-da

DÜNYAYA HUMANİZM DƏRSİ

Azərbaycanın lokal antiterror tədbirlərindən sonra atdığı addımlar dünyanın əksər ölkələri üçün humanizm dərsidir. Bu addımlar Azərbaycanın humanizmindən xəbər verir.

SƏHİFƏ 4-də

ERMƏNİSTANIN DƏLƏDUZ HİMAYƏDARI

Erməni lobbisi əsas dayaqlarından birini itirdi. Azərbaycan və Türkiyəni hər fürsətdə tənqid edən, erməniləri dəstəkləyən demokrat-senator Bob Menendes qanun qarşısında cavab verməyə hazırlaşır.

SƏHİFƏ 6-da

POMİDORU BAHALAŞDIRAN NƏDİR?

Daxili bazarda pomidorun qiymətində ikiqat artım müşahidə olunur. Satıcılar da bildirirlər ki, payız mövsümündə heç vaxt pomidor builki kimi kiloqramı 5-6 manatdan təklif olunmayıb.

SƏHİFƏ 10-da

AĞ XALATLI BƏSTƏKARIN HEKAYƏSİ

Almaniyada yaşayan azərbaycanlı həkim Etibar Rzalı: “Bir insanın həm bəstəkar, həm də həkim olmasını almanlar anlamırlar. Deyirlər ki, bəstəkarlıq qabiliyyətin varsa, niyə illərlə əziyyət çəkib, həkim olmaq üçün saç ağardırsan?”

SƏHİFƏ 15-də

Sərsəng nəzarətə götürüldü — Səhifə 12-də



Qənirə Paşayeva dəfn olunub — Səhifə 2-də



Xərclər azalsa da, diqqət azalmır — Səhifə 7-də

Səbəb plastik zibil qabları deyil — Səhifə 14-də



Arda zədələr girdabında — Səhifə 16-da

Qənirə Paşayeva dəfn olunub

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, deputat Qənirə Paşayeva dəfn olunub. "Report" xəbər verir ki, mərhum II Fəxri xiyabanda torpağa tapşırılıb. Dəfn mərasimində dövlət rəsmiləri, deputatlar, mərhumun ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qənirə Paşayevanın məzarına əklil göndərib. Əklil mərhumun II Fəxri xiyabanındakı məzarı üzərinə qoyulub. Eyni zamanda, Heydər Əliyev Fondu da Q.Paşayevanın məzarına əklil göndərib. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Qənirə Paşayevanın vəfatı ilə bağlı nekroloq da imzalayıblar.

Qeyd edək ki, Q.Paşayeva səhhətində yaranan ciddi problemlərlə əlaqədar sentyabrın 23-də Mərkəzi Klinikanın reanimasiya şöbəsinə yerləşdirilmişdi. O, sentyabrın 28-də vəfat edib.

Naməlum mənşəli hipotonik vəziyyət diaqnozu qoyulan Q.Paşayevanın səhhətindəki kritik durumla əlaqədar Mərkəzi Klinikanın həkim personalı və Türkiyədən gəlmiş həkim mütəxəssislər tərəfindən görülən bütün zəruri tədbirlərə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb.

Xatırladaq ki, Qənirə Ələsgər qızı Paşayeva 1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. Azərbaycan Dövlət Tibb Universitetinin Pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsini bitirib. Siyasi elmlər üzrə fəlsəfə doktoru, professoru olub.

1998-ci ildən "ANS" televiziya şirkətinin Xəbərlər xidmətində reportyor, müxbir, redaktor, aparıcı redaktor, baş aparıcı redaktor, baş redaktorun müavini, Xəbərlər redaksiyası baş redaktorunun müavini vəzifələrində çalışıb. 2005-2012-ci illərdə Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri olub, 2012-2015-ci illərdə "Odlar Yurdu" Universitetinin Siyasi elmlər kafedrasına rəhbərlik edib. Üçüncü, dördüncü və beşinci çağırış Milli Məclisin deputatı olub.

"Biz Qafqazda sülh və sabitlik istəyirik"

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bərpa işlərinə Azərbaycan büdcəsindən bu günə qədər yeddi milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırılan minimum büdcə 2,4 milyard ABŞ dolları olacaq.

BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə çıxış edib.

ŞƏRQİ ZƏNGƏZUR SIFIRDAN İNŞA EDİLİR

Dövlət başçısı bildirib ki, bütün Qarabağ kimi Şərqi Zəngəzur da sıfırdan yenidən inşa edilir. Onun sözlərinə görə, Zəngilan azad olunmuş ərazilərin ilk bölgəsi idi ki, artıq keçmiş məcburi köçkünlər buraya evlərinə qayıdıblar. Ağalı ağıllı kəndinə həyat qayıdıb, orada sakinlər xoşbəxt yaşayırlar: "Mən şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə qədər bağlıdırlar. Heç vaxt öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu, onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır". Zəngilanın Baş planının artıq təsdiq edildiyini bildirən dövlət başçısı deyib ki, burada infrastruktura böyük vəsait ayrılıb. "2025-ci ildə, ola bilər bir az da tez Zəngilan şəhərinin ilk sakinləri qayıdacaqlar", - deyə Prezident vurğulayıb.

30 KƏNDİN TƏMƏLİ QOYULUB

Prezident bu zamana kimi işğaldan azad edilmiş ərazilərin bərpasına sərf olunan vəsaitin miqdarını da açıqlayıb. "İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bərpa işlərinə Azərbaycan büdcəsindən bu günə qədər 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaq", - dövlət başçısı deyib. Onun sözlərinə görə, indiyədək 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiq edilib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə xüsusilə Şuşa və digər şəhərlərdə çox böyük, iri həcmli layihələr həyata keçiriləcək.

QARABAĞIN ERMƏNİ ƏHALİSİNİN HÜQUQLARI TƏMİN EDİLƏCƏK

Prezident lokal antitteror tədbirlərindən sonrakı proseslərə də toxunub. "Biz Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ, reinteqrasiya ilə bağlı, onların hüquqlarına dair öz baxışımızı təqdim etmişik. Dini, təhsil, mədəni, bələdiyyə hüquqları (Qarabağ ermənilərinin – red.) - bütün bu məsələlər beynəlxalq konvensiyalara uyğun olaraq həll ediləcək. Bunlar Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim Konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək", - deyə dövlətimizin başçısı vurğulayıb.

"BİZİM SƏBRİMİZLƏ OYNAMAYIN"

Prezident Azərbaycana qarşı qəbuledilməz planları olanlara da mesaj göndərib: "Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir".

"BU, MÜMKÜNDÜR VƏ SEÇİM ERMƏNİSTANINDIR"

Prezident bildirib ki, sentyabrın 20-də Azərbaycan öz suverenliyini bərpa edib: "Yəni, artıq "boz" zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulub. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir. Bu, yaxşı siqnaldır, - bəziləri hələ də qisas, revanşist ideyalarla yaşayırlar, - bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən imtina etsinlər".

Dövlət başçısının sözlərin görə, sentyabrın 20-dən sonra artıq zaman yetişib ki, bizim nümayəndələr əyləşsinlər və sülh sazişinin layihəsi üzərində işləsinlər: "Bundan sonra sülh sazişinin tezliklə imzalanması daha asan olacaq". Bununla yanaşı, sərhədlərin delimitasiyası üzərində fəal şəkildə çalışmağın və uzun müddət sürən bu qarşıdurmaya son qoymağın əhəmiyyətini vurğulayan dövlətimizin başçısı qeyd edib: "Azərbaycanda biz sülh istəyirik. Zəngilanda bu gün gördüklərniz onu sübut edir ki, biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır".

SEPARATİZMƏ ÖLDÜRÜCÜ ZƏRBƏ

Qarabağda yaranan yeni reallıq Azərbaycan dövlətinin, onun ali rəhbərliyinin, ordusunun ardıcıl hərbi və siyasi qələbələrinin nəticəsidir. 200 ildən artıq müddətdə əcdadlarımızdan bizə "miras" olaraq qalan Qarabağ problemi artıq mövcud deyil.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Suveren ərazilərimiz olan Yuxarı Qarabağ bölgəsində 30 ildən artıq müddətdə fəaliyyətini davam etdirmiş separatçı rejimin varlığına bir neçə gün əvvəl rəsmən son qoyuldu. Qondarma qurumun rəhbərliyi bəyanatla çıxış edərək "Arsax"ın artıq olmadığı, 2024-cü ilin yanvarına kimi bölgədəki bütün fəaliyyət sisteminin tamamilə Azərbaycan dövlətinin nəzarətinə keçəcəyini bildirdi. Beləliklə, Azərbaycan lokal antiterror tədbirləri zamanı qarşısına qoyduğu bütün vəzifələri yerinə yetirdi.

Heç kimə sirr deyil ki, Azərbaycan torpaqlarında qondarma muxtariyyət, daha sonra isə separatçı rejimin yaradılması hələ 200 il əvvəl xalqımızı girov saxlamaq üçün cızılan planın tərkib hissəsi idi. 2020-ci il müharibəsi bu planların puç olmasına rəvac verdisə, lokal antiterror tədbirləri müstəqil Azərbaycan ərazisində separatizmi tamamilə məhv etdi. Beləliklə, qondarma "DQR"in ləğvi mühüm tarixi hadisədir.

CİNAYƏTKARLAR CƏZASIZ QALMIRLAR

Tarix olan separatçı rejim uzun illər Qarabağ bölgəsində yaşayan erməni sakinlərdən də həm şəxsi, həm də siyasi məqsədlər üçün girov kimi istifadə edib. Bu nailiyyət həm də bölgənin ermənisilli sakinlərinin xilası deməkdir.

Artıq Qarabağdakı ermənilər girov saxlayanlar Azərbaycanın ədalət məhkəməsi qarşısında cavab verirlər. Bir neçə gün əvvəl xüsusi tapşırıqla Xankəndinə gələn, reinteqrasiya prosesinə maneələr yaratmaqla Azərbaycana qarşı dünya mediasında qara piarın əsas maliyyəçilərindən olan Ruben Vardanyan qaçmağa çalışarkən Laçın postunda saxlanılaraq Bakıya gətirilib. Vaxtilə Azərbaycan ordusuna qarşı döyüşmüş qanunsuz hərbi birləşmələrin "general"ı olmuş işğalçı qüvvələrinin keçmiş komandanı Levon Mnatsakanyan, separatçıların "təhlükəsizlik şurası"nın keçmiş "rəhbər"i Arşavir Qaramyan da Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən saxlanılanlar arasındadır. Bu siyahının qarşıdakı günlərdə daha da genişlənəcəyi isə istisna deyil.

ERMƏNİSTAN BU FÜRSƏTİ DƏYƏRLƏNDİRMƏLİDİR

Azərbaycanın tarixi qələbəsi və separatizmə son qoyması Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri və azərbaycanlı həmkarı İlham Əliyevlə apardığı müzakirələrin də əsas mövzusu olub. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan öz suverenliyini artıq tam təmin edib: "Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, beş gün əvvəl (20 sentyabr - red.) biz suverenliyimizi tam təmin etdik, bərpa etdik".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə daha çox bundan sonrakı sülh prosesinə yönələn açıqlamaları ilə diqqət çəkib: "Son zəfərlə birlikdə bölgədə əhatəli normallaşma üçün yeni fürsət pəncərələri açılmışdır. Bu fürsətin dəyərləndirilməli olduğuna inanıram. Ermənistanın ona uzadılan sülh əlini tutmasını və artıq səmimi addımlar atmasını gözləyirik".

SÜLHƏ ƏNGƏL QALMADI

Separatçı rejimin özünü buraxmasının bölgədə cərəyan edən proseslərə və sülh danışıqlarına təsirinə gəldikdə isə, bir neçə mühüm məqamı vurğulamaq yerinə düşər. Azərbaycan qondarma qurum rəhbərliyinə özünü buraxdığını elan etməyə imkan yaratmaqla gələcəkdə ermənilərin xaricdə uydurma "Arsax hökuməti" formalaşdırmaq planlarını da pozmuş oldu. Digər tərəfdən, sülh danışıqlarında ən böyük maneə də aradan qalxdı. Ermənistanın sülhdən yayınmaq, bölgənin gələcək inkişafına maneə yaradan təxribatlara əl atmasına imkan verəcək hər hansı bəhanəsi qalmadı. Azərbaycanın Xarici İşlər Nazirliyinin son bəyanatında rəsmi İrəvana ünvanlanan çağırışda bu məqam xüsusi olaraq qabardılır. "Ermənistanın Azərbaycan ərazilərində qurduğu separatçı rejimin onun gözləri qarşısında necə dağıldığını və yox olduğunu görməsinin nə qədər ağrılı olduğunu anlayırıq, lakin indi onlar üçün Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə həm sözdə, həm də əməldə hörmətə əsaslanan sülh və etimad qurmağa diqqət yetirmək daha yaxşı olardı", - bəyanatda deyilir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

QARŞIYA QOYULAN HƏDƏFLƏR

Separatçı rejimin buraxılmasından sonra Qarabağdakı ermənisilli sakinlərin reinteqrasiya prosesi istiqamətində də mühüm addımlar atılmaqdadır. Prezident Administrasiyasının bununla bağlı məlumatında bildirilir ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi fəaliyyəti çərçivəsində ilkin mərhələdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin qeydiyyatının aparılması nəzərdə tutulur. Bu məqsədlə xüsusi portal da yaradılıb. İlkin qeydiyyata alınma Qarabağ bölgəsində yaşayan erməni sakinlərin bütün dövlət xidmətlərindən səmərəli şəkildə yararlanmasına, həmçinin sosial-iqtisadi və humanitar ehtiyaclarının qarşılanmasına imkan yaradacaq.

HƏRBİ-SİYASİ QƏLƏBƏLƏRİMİZİN MƏNTİQİ SONLUĞU

Göründüyü kimi, Qarabağda yaranan yeni reallıq Azərbaycan dövlətinin, onun ali rəhbərliyinin, ordusunun ardıcıl hərbi və siyasi qələbələrinin nəticəsidir. 200 ildən artıq müddətdə bizə miras kimi qalan Qarabağ problemi artıq mövcud deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, diplomatik və hərbi qələbələri, dəmir siyasi iradəsi Azərbaycan xalqını, gələcək nəsillərimizi bu ağır yükdən birdəfəlik xilas etdi.

Fotolar: Tapdıq Abdullayev/Global Media Group

DÜNYAYA HUMANİZM DƏRSİ

Azərbaycanın lokal antiterror tədbirlərindən sonra atdığı addımlar dünyanın əksər ölkələri üçün humanizm dərsidir. Dünya tarixində bəlkə də mümkünsüz sayılan bu addımlar Azərbaycanın dövlət olaraq prinsiplərinin sarsılmaz dayaqlar üzərində durduğundan xəbər verir.

FUAD ABASOĞLU

Lokal antiterror tədbirlərindən dərhal sonra Azərbaycan bölgədə humanitar addımlar atmağa başlayıb. Qarabağın erməni sakinlərinin yanacaq təminatını yaxşılaşdırmaq üçün Ağdam-Xankəndi yolu ilə yanacaq göndərilib. Məqsəd ilk növbədə uşaq bağçaları və səhiyyə ocaqlarının fasiləsiz işini təmin etmək idi. Bu addım Azərbaycan hökumətinin insan hüquqlarına hörmətinin təzahürü sayılır.

QƏRBİN SİYASİ DAİRƏLƏRİNƏ TƏRS SİLLƏ

Qarabağ regionunda qeyri-qanuni məskunlaşan erməni əhalinin böyük hissəsi atəşkəs razılaşmasından sonra könüllü surətdə Ermənistana miqrasiya etməyə başlayıb. Azərbaycanın bu məsələ ilə bağlı atdığı addımlar güman ki, illər sonra da danışılacaq. Qeyri-qanuni məskunlaşan ermənilərin təhlükəsiz köçünə şərait yaradılmaqla yanaşı, ərzaq yardımı edilir, yaralılara və köməyə ehtiyacı olanlara əl uzadılır.

Bu, dövlətin humanizmi, irqindən və dinindən asılı olmayaraq insan hüquqlarına hörmət, dünyada nümunəvi sayılan tolerantlıq göstərişidir. Bu gün Qərbin müxtəlif dairələrində Azərbaycan əleyhinə əsassız ittihamlar səsləndirən Fransa və Almaniya kimi dövlətlərin tarixində yaşanmayan bu hadisə əslində onlara bir dərsdir. Fransanın Afrikada, Almaniyanın isə 2-ci dünya müharibəsində Avropada törətdikləri vəhşilik və qeyri-insani davranışlar yaxın tarixdə baş verib və hamıya məlumdur. Əslində, tarixi bu tip ləkələrlə dolu ölkələrin Azərbaycan əleyhinə qərəzli bəyanatlar səsləndirmələri məntiqə və vicdana sığmır. Necə deyərlər, öz ayıblarına kor olmalıdırlar.



AZƏRBAYCAN ƏSGƏRİNİN NÜMUNƏSİ

Lokal antiterror tədbirləri dayandırıldıqdan sonra bölgədən müxtəlif videogörüntülər yayılmağa başlayıb. Ən çox diqqət çəkən və bir sıra dünya mətbuat orqanlarında da xəbərə çevrilən videogörüntüdə Azərbaycan əsgərinin daxil olduğu evdə kiçik qızın fotosunu yerdən götürməsi, "Bizim heç vaxt ermənisilli mülki şəxslərlə, o cümlədən qadınlar və uşaqlarla işimiz olmayıb" sözləridir. Bu yanaşma yəqin ki, Afrikada qanlı qətliamlar törətmiş fransız legionerlərinə dərs sayıla bilər. Bir tərəfdə tək Əlcəzairdə milyonlarla günahsız insanı qətlə yetirən fransız əsgəri, digər tərəfdə isə erməni uşağın fotosunu əzizləyən Azərbaycan əsgəri.

Bir tərəfdə işğal etdiyi dövlətlərdə milyonlarla əsiri qaz kameralarında yandıran alman əsgəri, digər tərəfdə isə yaralı erməni əsgərini xilas etməyə çalışan Azərbaycan əsgəri. Bunlar bütün dünyanın dərs çıxarmalı olduğu görüntülərdir.

AZƏRBAYCAN POLİSİNİN AYIQ-SAYIQLIĞI

2019-cu il Ermənistanda keçirilən parlament seçkilərində təbliğat üçün Azərbaycan polisini təhqir edən videoçarx yayılmışdı. Lokal antiterror tədbirlərindən sonra Azərbaycanın müxtəlif güc strukturları bölgəyə ezam olunaraq yerli sakinlərin təhlükəsizliyini təmin edir, keçid məntəqələrindən sərbəst hərəkətinə şərait yaradır. Bəs görəsən, belə bir hal dünyanın hansı ölkəsində olub? Hələ bu da azmış kimi, Azərbaycan polisi yollarda qalan erməni sakinlərə yardım əlini uzadır, avtomobildə oturub saatlarla gözləyən qadınları, uşaqları suya və çörəyə qonaq edir. Yenə də Azərbaycan humanizmi. Görəsən, bu gün Qərb siyasətçiləri bu görüntüləri görmür? Çox güman ki, görüblər. Sadəcə, onlar üçün çirkin və məkrli planlarını icra etmək üçün görməzlikdən gəlmək daha sərfəlidir.

XANKƏNDİYƏ YAYILAN AZƏRBAYCAN İŞIĞI

Hələ sentyabrın 21-də Qarabağın Xankəndi şəhərinin Azərbaycan enerji sisteminə qoşulmasının təmin edilməsi inteqrasiya prosesinin növbəti addımlarından biri idi. Azərbaycan səhra hospitalının yaradılmasını təmin edir, müxtəlif yerlərdə çadırlar qurur, yaşlı, köməyə ehtiyacı olan, erməni əsilli sakinlərin qida və ərzaq təminatını həll edir, yaralıları dərhal əməliyyat etdirir, əraziyə yardım karvanları göndərir. Bununla Azərbaycan hökuməti sübut edir ki, Qarabağın ermənisilli sakinlərinin nə Ermənistanın humanitar yardımına, nə də Fransanın min məqsədə xidmət edən yardım karvanına ehtiyacı var. Qarabağ Azərbaycanın ayrılmaz bir parçasıdır və sakinlərin ehtiyacını təmin edən və edəcək güclü, qüdrətli dövlət var.

“BİZİM CANIMIZDA QORXU YOX İDİ”

YADDAŞDAN SİLİNMƏYƏCƏK GÜNLƏR

Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev: “Yaşananlar heç vaxt yaddaşdan silinməyəcək. Əgər bir hadisə qanla yazılıbsa, heç vaxt yaddaşdan silinməz. Bu qələbəni qazanmaqdan ötrü hər birimiz sevə-sevə canımızı sipər etmişik”.

HAZIRLADI
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

“Keçdiyimiz döyüş yolunu paylaşmaq, şagirdlərlə vətənpərvər ruhda söhbət etmək, bu hissləri bölüşmək şərəfli bir andır...” Qəhrəmanlığına qədər yüksəldiyi Vətən müharibəsinin acılarını xatırlamaq onun üçün nə qədər kədərli olsa da, qazanılan Zəfərin sevincini yaşamaq daha böyük qürurdur. Hərbçi peşəsində ona ən böyük şərəf və fəxarət hissini yaşadan də məhz 44 günlük müharibənin son nöqtəsi - Zəfər Günüdür.

Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev 27 Sentyabr - Anım Günü ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və “Kaspi” qəzetinin birgə layihəsi olan “Məktəbdə” qonaq olarkən bu sevincini şagirdlərlə bölüşdü. Binəqədi rayonundakı 300 saylı tam orta məktəbdə baş tutan görüşdə şagirdlər qəhrəman hərbçinin keçdiyi döyüş yolu hekayəsini dinlədilər, öz gələcək həyatları ilə bağlı tövsiyələrini eşitdilər.

BİZİ QƏLƏBƏYƏ RUHLANDIRAN AMİLLƏR

“44 günlük müharibə xalqımızın qəhrəmanlıq salnaməsinin xüsusi nümunəsidir”, - deyə Anar Mirzəyev Vətən müharibəsinin yaxın tarixini vərəqlədi: “Azərbaycan Silahlı Qüvvələri düşmənin silahlı bölmələrini darmadağın edərək 30 illik həsrətə son qoydular. Bu da bizim milli kimliyimizi bütün dünyaya nümayiş etdirdi. Hər bir uğurun əldə edilməsini şərtləndirən səbəblər var. Bu, ilk növbədə Prezidentimizin yürütdüyü qətiyyətli və inamlı siyasətidir. İkinci amil - biz öz doğma torpaqlarımız üçün, sərhədlərimiz çərçivəsində müharibə aparmışıq. Üçüncü amil isə xalqın birliyi, orduya verdiyi dəstək olub. Mən həmişə deyirəm ki, 44 günlük müharibədə qəhrəman bütün Azərbaycan xalqıdır. Sosial şəbəkələrdə görmüsünüzmü? Bir qoca nənə bir qazan aş bişirib neçə minlik orduya göndərib və düşünüb ki, hamıya çatacaq. Bax, qəhrəman o nənədir. Onu görən, hiss edən Azərbaycan əsgəri qəhrəmancasına döyüşməyə bilməzdi”.

“DÜŞMƏNİN GÜLLƏSİ BİZİ YIXA BİLMƏZ”

Polkovnik-leytenant 27 sentyabrda başladıqları əks-hücum əməliyyatlarını xatırladı: “Hərbi hissə daimi yaşayış məntəqəsini tərk edən zaman bizim texnikalar çıxan avtoparka gəldim. Tankçıların bayraq üzərinə “Ya Qarabağ, ya ölüm” şüarını yazdıqlarını gördüm. Əsəbi formada “bu şüarı çıxarın” dedim. Bir anlıq duruxdular. “Ya Qarabağ, ya da Qarabağ” yazın. Bizim ikinci seçimimiz yoxdur. Nəyin bahasına olursa-olsun, Qarabağ düşmən işğalından azad olunmalıdır” dedim. Şüarı dərhal dəyişdirdilər”. A.Mirzəyev tariximizin bu şərəfli səhifəsinin yazılmasında iştirak etdiyi üçün özünü xoşbəxt hesab edir: “Biz Füzulidən “Qırmızı bazar” istiqamətinə qədər piyada hərəkət etdik. Amma çətinliklərin heç biri bizə maneə olmadı. Döyüşlərin qızğın vaxtında boğazımdan qəlpə yarası aldım. Özüm yarama sarğı qoydum və “İgidlər, düşmənin gülləsi bizi yıxa bilməz” dedim. Mənimlə döyüşən hər bir hərbi qulluqçu bunu söylədi və hədəfə doğru irəlilədik”.

Fotolar: Əhməd Hətəmzadə/ Global Media Group

Polkovnik-leytenantı diqqətlə dinləyən şagirdlər onları maraqlandıran sualları ünvanladılar. “44 günlük Vətən müharibəsinin başlanmasının 3 ili tamam oldu. Yaşananlar nə vaxtsa yaddaşınızdan çıxarmı?” - deyə şagirdlərdən biri soruşdu: “Yaşananlar heç vaxt yaddaşdan silinməyəcək. Əgər bir hadisə qanla yazılıbsa, heç vaxt yaddaşdan silinməz. Bu qələbəni qazanmaqdan ötrü hər birimiz sevə-sevə canımızı sipər etmişik. Biz deyirdik ki, Vətəndən pay olmaz, sona qədər getməliyik. Xoşbəxtik ki, tariximizin bu şərəfli səhifəsi məhz bizim yaşadığımız dövrə təsadüf etdi. Biz bu gün sizin gözünüzün içinə alnıaçıq baxa bilirik. Allaha şükür edirəm ki, Ali Baş Komandanın başçılığı altında bu məsuliyyətli tapşırığı sizin üzərinizə buraxmadıq. İndi siz dünyanın istənilən bir ölkəsində yaxşı təhsil ala, yaxşı mütəxəssis kimi yetişə bilərsiniz. Siz vaxtınızı buna ayırın”.

ATALIQ VƏ KOMANDİRLİK

“İndiki gənclərlə öz dövrünüzün gəncləri arasında hansı oxşar və fərqli cəhətlər görürsünüz?” - deyə doqquzunculardan biri soruşdu: “Mən bir valideynəm, eyni zamanda bir komandir idim. Müharibə dövründə iki mühüm vəzifənin yükü vardı çiynimdə. Məni ata kimi arxada gözləyən övladlarım və mənimlə döyüşən övladlarım... İkincilərin çəkisi daha ağır idi. Əynimdə mundir olanda düşünmürdüm ki, ata olaraq evə mütləq qayıtmalıyam. Düşünürdüm ki, nəyin bahasına olursa-olsun, bizə həvalə olunan camaatın balasını qorumalıyıq”. A.Mirzəyev hazırkı gənclərin dünyagörüşünü daha yüksək qiymətləndirdi: “Azərbaycan gəncləri sayılıb-seçiləndirlər. Onlar fərqli zamanda böyüyürlər, seçim imkanları daha çoxdur. Bu imkanlardan düzgün istifadə etmək lazımdır”.

BİZİM TƏSƏVVÜRÜMÜZLƏ SİZİN REALLIQ ARASINDAKI FƏRQ

“Müharibə bizim nəzərimizdə film səhnələridir. Siz isə reallıqda müharibədə olmusunuz. Bizim təsəvvürümüzlə sizin reallıq arasındakı fərq nədən ibarətdir?” - deyə uşaqlardan biri soruşdu. “Ali Hərbi Məktəbdə müdavim olan zaman bizə müharibə kinoları izlədirdilər. O vaxt kinoya baxanda bizi vahimə basırdı. Real müharibə səhnələri isə daha təsiredicidir, kinoda gördüklərini müharibənin içində yaşayırsan. Yaralılara kömək edirsən, əsgər dostların gözünün önündə olur... Müharibə səhnəsi film səhnəsi deyil. Bizim canımızda qorxu yox idi. Bunu adama Allah bəxş edir”.

“ORDUMUZ ŞÜCAƏTİNİ BÜTÜN DÜNYAYA NÜMAYİŞ ETDİRDİ”

“Bir neçə gün əvvəl ordumuz lokal xarakterli antiterror tədbirləri ilə daha bir missiyanı yerinə yetirdi. Bu barədə nə deyə bilərsiniz?” - deyə şagirdlərdən biri sualına cavab istədi. “Düşmən imzalanmış Üçtərəfli Bəyanata əməl etmirdi”, - deyə hərbçi cavab verdi: “Prezident həmin bəyanatı imzalamışdı ki, biz torpaqlarımızı itkisiz azad edək, amma onlar əməl etmədilər. Azərbaycan ordusu dünyanın heç bir yerində görünməyən uğura imza atdı: bir sutka tamam olmamış düşmən artıq ağ bayraq qaldırdı. Onlar öz əlləri ilə hərbi sursatı, texnikanı gətirib təhvil verir və geri çəkilirlər. Bununla da ordumuz öz şücaətini bütün dünyaya nümayiş etdirdi”.

ERMƏNİSTANIN DƏLƏDUZ HİMAYƏDARI

ABŞ-dəki erməni lobbisi özünün əsas dayaqlarından birini itirdi. Azərbaycan və qardaş Türkiyəni hər fürsətdə tənqid edən, erməniləri dəstəkləyən demokrat-senator Bob Menendes indi qanun qarşısında cavab verməyə hazırlaşır.

AZƏR NURİYEV

Dünya ermənilər kədər içindədirlər. İllər uzunu onların çirkin yalanlarının, iftiralarının, haqsız iddialarının müdafiəçisi kimi çıxış edən ABŞ Senatının Beynəlxalq əlaqələr komitəsinin sədri Robert (Bob) Menendes dələduz çıxıb. Bu, onsuz da bəlli idi. Ermənilərin haqsız kampaniyalarına, türkofob siyasətinə dəstək verən belə də olmalı idi. Korrupsiya ittihamı ilə vəzifəsindən uzaqlaşdırılan bu şəxsin cinayətlərinə ömür-gün yoldaşı, erməni Nadin Arslanyan da şərik olub. Senatorun bəlli olan cinayəti ondan ibarətdir ki, bu şəxs Misir hakimiyyətinin xeyrinə göstərdiyi köməkliyin müqabilində rüşvət alıb. Menendes vəzifəsindən müvəqqəti uzaqlaşdırılsa da, şübhəsiz ki, bu, onun karyerasının sonu deməkdir. Azərbaycan və qardaş Türkiyəni hər fürsətdə tənqid edən, ermənileri dəstəkləyən demokrat-senator indi qanun qarşısında cavab verməyə hazırlaşır.

QIZIL KÜLÇƏLƏR, NAĞD PUL, AVTOMOBİL...

Məlumata görə, Menendes və həyat yoldaşı yüz minlərlə dollar dəyərində rüşvət almaqda ittiham olunurlar. Prokurorluğun iddiasına görə, rüşvətlərə qızıl külçələr, nağd pul, ev ipotekası ödənişləri, yarımçıq iş günü və ya işdən kənarda olmağa görə kompensasiya və bahalı avtomobil daxildir. Həmçinin, onun həyat yoldaşı, milliyyətcə erməni olan Nadin Arslanyan və Nyu-Cersidən olan üç iş adamı da bu işlərdə iştirak etməkdə ittiham olunurlar. Bu şəxslər Menendesin ABŞ senatoru kimi səlahiyyətindən şəxsi maraqlar və Misirin xeyrinə, daha doğrusu, ABŞ-yə halal ət tədarükündə inhisarı əldə saxlamaq üçün istifadə etmək səylərini koordinasiya ediblər. Prokurorluqdan Menendesin evində və onun bank qutusunda aparılan axtarışlar zamanı üzərində onun adı yazılmış pencəklərin ciblərində zərflər də daxil olmaqla, təxminən 500 min dollar pul tapılıb. Prokurorlar iddia edirlər ki, zərflərin bəzilərində senatorun rüşvət almaqda ittiham olunduğu iş adamlarından birinin barmaq izləri və ya DNT-si olub.



Robert (Bob) Menendes

Nadin Arslanyan

BİR MİLYON DOLLARLIQ RÜŞVƏT İTTİHAMI

İttiham tərəfi Menendesin bir milyon dollardan çox rüşvət aldığını iddia edir. Müstəntiqlərin sözlərinə görə, senator bütün bunları "köməyə görə minnətdarlıq" kimi qəbul edib. İstintaq həmçinin siyasətçini tərəfdaşlarından birinə qarşı cinayət təhqiqatını pozmaqda ittiham edir. Əvvəlcə Menendes bütün ittihamları yaxın buraxmayaraq vəzifəsini tərk etməkdən imtina edib. Amma partiya yoldaşlarının təzyiqindən sonra postunu tərk edib. Menendes 2006-cı ildə ilk dəfə Senata namizəd olanda korrupsiyada şübhəli bilinirdi. Federal prokurorlar siyasətçinin milyonlarla dollar federal qrant almasına kömək etdiyi və ona yüz minlərlə dollar icarə haqqı ödədiyi qeyri-kommersiya təşkilatını araşdırırdı. Lakin o zaman heç bir rəsmi ittiham irəli sürülməyib. 2015-ci ildə Menendes vəzifəsindən istifadə edərək üçüncü şəxslərə pul müqabilində kömək etməkdə şübhəli bilinirdi. Onun Floridadakı sponsoru Solomon Melgemin biznesinə dəstək verə biləcəyi şübhələri vardı. Amma istintaq zamanı siyasətçinin xidmət müqabilində hər hansı ödəniş və ya hədiyyə alması sübuta yetirilməyib və 2018-ci ildə ona bəraət verilib.

Sergey Markov

Konstantin Bloxin

ABŞ-ERMƏNİSTAN ƏLAQƏLƏRİNƏ MƏNFİ TƏSİR EDƏCƏK

Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov hesab edir ki, çoxsaylı cinayətlərdə şübhəli bilinən siyasətçi Ermənistanı dəstəkləyən əsas senatorlardan biridir və onun mühakiməsi İrəvanla ABŞ arasında yaxınlaşmaya mənfi təsir göstərəcək. "Bu hadisədən sonra ABŞ hökumət strukturu ilə Ermənistan rəhbərliyi arasında təmaslar azalacaq. Bu baş verərsə, Ermənistan lideri Nikol Paşinyanın ölkəsini ABŞ-nin müttəfiqliyinə çəkmək ehtimalı da azalacaq", - deyə ekspert vurğulayıb.

Beynəlxalq politoloq Konstantin Bloxin də qeyd edib ki, Menendesə qarşı aparılan istintaq 2024-cü ildə demokratların və ABŞ Prezidenti Co Baydenin mövqelərinə ciddi təsir etməyəcək. "Bu, yalnız senatorlardan biridir. Bayden özü də dərin dövlətin nümayəndəsidir. O, toxunulmazlar qrupuna aiddir", - ekspert qeyd edib.

BAYDEN DƏ MENENDESİN GETMƏSİNİ İSTƏYİR

CNN analitiklərinin fikrincə, demokrat senatora qarşı cinayət işi açmaqla ABŞ Ədliyyə Departamenti göstərmək istəyib ki, partiya mənsubiyyətindən asılı olmayaraq siyasətçilərin fəaliyyətini eyni dərəcədə diqqətlə araşdırır. Tanınmış siyasi şərhçi Cessi Uotters hesab edir ki, Menendesə qarşı aparılan istintaq demokratların diqqəti Baydenin impiçment araşdırmasının başlamasından yayındırmaq cəhdidir. O hesab edir ki, dövlət başçısının özü Menendesin Xarici Əlaqələr Komitəsinin rəhbəri vəzifəsindən istefa verməsində maraqlıdır. "Menendes Baydenin geri qaytarmaq istədiyi İran razılaşmasına nifrət edir. Menendes İsraili sevir, Bayden isə o qədər də yox", - Uotters deyib. Qeyd edilir ki, məhkəmə işinin arxasında Bayden dayanmır, çünki o, respublikaçılardan birinə qarşı məhkəmə prosesi başlatmağa üstünlük verərdi. Beləliklə, sadalananlar Menendesin dələduzluğunun yalnız bir hissəsidir. Lakin elə bunlar da onun obrazını göz önündə canlandırmaq üçün kifayətdir. Hər halda bütün bunlar dünyaya demokratiya dərsi keçmək istəyən, insan haqlarından dəm vuran dövlətin mahiyyətini ortaya qoyur. 30 il işğalçı ilə işğala məruz qalan arasında fərq qoyulmaması, milyonlarla insanın hüquqlarının pozulmasına göz yumulması dediklərimizi təsdiq edir.

XƏRCLƏR AZALSA DA, DİQQƏT AZALMIR

2024-cü ilin dövlət büdcəsində kənd təsərrüfatı xərclərinin 7.7 faiz azaldılması nəzərdə tutulur. Hökumətin açıqladığı ilkin rəqəmlər müəyyən suallar yaradıb. Ölkədə kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərildiyi şəraitdə bu sahəyə büdcə ayırmalarının azaldılmasının səbəbi nədir?



İLHAMƏ ƏBÜLFƏT

2024-cü ildə Azərbaycanda kənd təsərrüfatı xərclərinin 1 milyard 109,9 milyon manat olması nəzərdə tutulur. Maliyyə Nazirliyinin məlumatına görə, bu, 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 7,7 faiz azdır. Qeyd edək ki, ötən il kənd təsərrüfatına 1 milyard 202 milyon 142 min 802 manat pul ayrılıb.

Ölkədə kənd təsərrüfatının inkişafına xüsusi diqqət göstərildiyi şəraitdə bu sahəyə büdcə ayırmalarının azaldılmasının səbəbi nədir? Bəzi ekspertlər Azərbaycanda kənd təsərrüfatı xərclərinin azaldılmasını gələn il dövlət büdcəsindən yerli büdcələrə və hüquqi şəxslərə qarşılıqsız verilən maliyyə vəsaitinin aşağı olacağı ilə əlaqələndirirlər.

XƏRCLƏRİN AZALMASINI SUBSİDİYALARLA ƏLAQƏLƏNDİRMƏK DÜZGÜN DEYİL

Kənd təsərrüfatı məsələləri üzrə ekspert Cəfər İbrahimlinin sözlərinə görə, 2024-cü ildə Azərbaycanda kənd təsərrüfatı xərclərinin azaldılmasını subsidiyaların azalması ilə əlaqələndirmək düzgün deyil: "Əkinçilik və məhsuldarlıq subsidiyalarında azalma yox, artım var. Subsidiyaların miqdarı ötən illə müqayisədə yüksəkdir. Açıqlanan rəqəmlərdən də görünür ki, azalma müşahidə edilmir. Kənd təsərrüfatı sahəsində çalışanların əməkhaqqılarında və digər xərclərdə də ciddi dəyişiklik olmayacaq. Əvvəlki illərdə büdcədən infrastrukturla bağlı xərclər çox ayrılmışdı. Bu il nazirliyin yeni binasının da açılışı olub. Çox güman ki, artıq infrastrukturla bağlı optimallaşma olub və ehtiyaclar azaldılıb".

Tahir Rzayev

HANSI XƏRCLƏRİN AZALDILMASI NƏZƏRDƏ TUTULUR?

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevin sözlərinə görə, dövlət büdcəsindən kənd təsərrüfatına ayrılan xərclərin azaldılması ilə bağlı deyilənlər düzgün deyil: "Səslənən fikirlərin heç bir əsası yoxdur. Kənd təsərrüfatına ayrılan xərclərin azaldılması və bu sahənin inkişafına mənfi təsiri barədə fikirlər yayılır. Əslində, dövlət büdcəsindən kənd təsərrüfatının inkişafına yönəldilən xərclərdə heç bir azalma yoxdur. Taxılçılıqla bağlı müəyyən əlavə tədbirlər nəzərdə tutulmuşdu. Onlar müəyyən qaydada həyata keçirilib və həmin xərclərin azaldılması planlaşdırılır. Bu da kənd təsərrüfatı sahəsinə ayrı-ayrı xərclərin əmsalına öz mənfi təsirini göstərə bilməz. Bu gün aqrar sektorun inkişafı dövlət başçısının diqqət mərkəzindədir. Bu sahədə keçirilən bir çox tədbirlər göstərir ki, Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi əsas istiqamətlərdəndir. Həmin tədbirlərin təmin olunması üçün dövlət hər cür imkan yaradıb".

KƏND TƏSƏRRÜFATI İLƏ BAĞLI MÜƏYYƏN GÜZƏŞTLƏR EDİLƏCƏK?

İqtisadçı ekspert Rauf Qarayev bildirib ki, xərclərin azaldılması inflyasiyanın aşağı düşməsi ilə bağlı ola bilər: "Çünki Mərkəzi Bank gələn il üçün inflyasiya həddinin daha aşağı olmasını nəzərdə tutur. Bu, təxmini altı faiz nisbətində olmalıdır. Digər tərəfdən, vergi güzəştlərinin tətbiqi nəticəsində gözləntilərin olmasıdır. Yəni, artıq xərclərin azalması və gəlirlərin çoxalması planlaşdırılır".

Ekspert əlavə edib ki, 2024-cü ildə kənd təsərrüfatı ilə bağlı müəyyən güzəştlər də nəzərdə tutulub: "Həmin güzəştlər nəticəsində gəlirlərin artması gözlənilir. Ola bilər ki, əkin sahələrinin sayının azalması xərclərə təsir edib. Çünki kənd təsərrüfatında su və digər problemlər də mövcuddur. Nəticədə məhsulların gözləntilərdən az olması xərclərin də azaldılmasına gətirib çıxara bilər".

Rauf Qarayev

AQRAR SEKTORUN İNKİŞAFI ƏSAS VƏZİFƏDİR

Deputat vurğulayıb ki, kənd təsərrüfatına ayrılan vəsaitin düzgün xərclənməsi və ehtiyac olan hallarda dəyən ziyanın ödənilməsi diqqət mərkəzindədir: "Təbii fəlakət və digər hallarla əlaqədar sahibkarlara dəyən ziyanın ödənilməsi də dövlətin diqqətindədir. Bildiyiniz kimi, bu il bir çox rayonlarımıza dolu düşdü, sel gəldi. Nəticədə kənd təsərrüfatına ciddi ziyan dəydi. Bununla bağlı hökumətin tədbirləri var və sistemli şəkildə həyata keçirilir. Dövlət tərəfindən də müəyyən maliyyə vəsaitlərinin təsərrüfata yönəldilməsi ildən-ilə artır. Bu da onu göstərir ki, aqrar sektorun inkişafı əsas vəzifə kimi qarşıya qoyulub. Növbəti illərdə bir çox güzəştlərin edilməsi bu sahənin inkişafına daha da imkan yaradacaq".

Maliyyə Nazirliyi tərəfindən bildirilib ki, kənd təsərrüfatına xərclərin azaldılması ilə bağlı Milli Məclisdə müzakirələr başlayanda bu məsələlər izah olunacaq və şərhlər veriləcək.

“UZUN İLLƏRDİR Kİ, İSTƏDİYİMİZ DEKORLARI, KOSTYUMLARI ƏLDƏ EDƏ BİLMİRDİK, AMMA MUSİQİ NAMİNƏ ÇALIŞIRDIQ”

“ƏSL MƏDƏNİYYƏT SAVAŞI BUNDAN SONRA BAŞLAYACAQ”

Xalq artisti, maestro Yalçın Adıgözəlov: “Klassik musiqi elitardır. Bu, heç vaxt kütlə mədəniyyəti ola bilməz. Keyfiyyətli tamaşa olsun, səviyyəsi yüksək, dekorları, musiqisi, səsləri gözəl olsun-görün zal dolur, ya yox”.

SÖHBƏTLƏŞDİ
Tərənə Məhərrəmova
taranamaharramova@kaspi.az

Üzeyir Musiqi Gündündə musiqi ictimaiyyəti möhtəşəm bir bayram yaşadı: Arif Məlikovun “Məhəbbət əfsanəsi” uzun illərdən sonra Azərbaycan səhnəsinə - Vətəninə qayıtdı.

Baletin dirijoru - Xalq artisti, maestro Yalçın Adıgözəlovun sevinc və həyəcanını salonun lap arxa cərgələrində oturan tamaşaçılar da sezirdi. Maestro “Kaspi”yə müsahibəsində həmin günü “Qurur və sevinc” günü adlandırdı:

“QOY MƏMURLAR CAVAB VERSİNLƏR”

● “Məhəbbət əfsanəsi” baletinin nümayişindən sonra tamaşaçılar “Bakı çoxdan belə anşlaq yaşamayıb, belə alqışlar eşitməyib...” deyirdilər. Baletin nümayişinə dirijor kimi sizin də gözünüzlə baxaq...

● Bəli, hamıda böyük həyəcan və qürur hissi vardı. Çünki Azərbaycan bəstəkarlıq məktəbinin ikinci belə bir əsəri yoxdur ki, bütün dünyaya yayılsın. “Məhəbbət əfsanəsi” Vətəninə qayıtdı. Arif Məlikovun öz dediyinə görə, balet dünyanın 60 ölkəsində səhnəyə qoyulub. Bu, çox böyük bir rəqəmdir. Mən Arif müəllimin gözünün önündə böyümüşəm. Hamımız bir evdə - Hüsü Hacıyev küçəsindəki məşhur “Bəstəkarlar evi”ndə yaşamışıq. Atamın yaxın dostu idi. Uşaqlıqda ona “Arif əmi” deyirdim, qızı Şirinlə bərabər böyüyürdük. 1989-cu ildə Leninqradda (indiki Sankt-Peterburq) təhsilimi bitirib dirijor kimi ölkəmizə qayıdanda artıq Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru kimi çalışırdım. İkinci konsertin proqramına Arif Məlikovun “Nağıl” simfonik poemasını daxil etdim. Arif müəllim konsertə gəldi. “Çox sevinirəm, Azərbaycana yeni bir gənc dirijor gəldi. Təhsilin mükəmməldir”, - deyə məni qucaqladı: “Bundan sonra əsərlərimi sənə etibar edəcəm” dedi.

● “Məhəbbət əfsanəsi”ni də nəzərdə tuturdu?

● “Məhəbbət əfsanəsi” ilə görüşüm 2000-ci ilə təsadüf etdi. İstanbul Dövlət Opera və Balet Teatrının dirijoru vəzifəsində çalışırdım. Bir ay orada, bir ay Bakıda olurdum. Çünki tələbələrim burada idi. Bir gün İstanbulda müdiriyyət “Nazim Hikmətin “Aşk masalı”nın kompakt diskini yazmaq istəyirik”, - deyə, mənə müraciət etdi. Orkestr böyük ruh yüksəkliyi ilə məşqlərə başladı. Premyera keçirildikdən sonra qərara alındı ki, biz əsərin DVD-sini də çəkək. Bakıdan rejissor Ramiz Həsənoğlu dəvət olundu və onunla əsərin DVD variantını işlədik. Mən bir dirijor kimi o vaxt artıq “Məhəbbət əfsanəsi”nə vurulmuşdum. Diskləri götürüb Arif müəllimin yanına gəldim. “Mənim niyə xəbərim yoxdur? Niyə icazə almamısınız?”, - deyə əvvəlcə sərt reaksiya verdi. “Mən oranın dirijoruyam. Bunu mən etməsəydim başqa türk dirijoru edəcəkdi. Mənə etibar etdilər” dedim. “Qulaq asıb fikrimi deyəcəm” söylədi. 2-3 gündən sonra həyətdə görüşdük. “Bunu sən yazmısan?”, - soruşdu. Bir az pərt oldum: “Əlbəttə, mən yazmışam. Bəlkə bəyənmədiniz?”, - soruşanda “Əksinə, çox bəyəndim. Çox ideal səviyyədə hazırlanıb”, - deyə məmnunluğunu gizlətmədi. Onun fikri mənim üçün çox vacib idi. Sözsüz ki, “Məhəbbət əfsanəsi”nin səhnəmizə qayıtması uzun vaxt çəkdi. Biz bilmirdik ki, əlimizdə belə bir inci var. Bir ay gecə-gündüz çalışdıq. Tamaşada iştirak edənlər, xaricdən gələn qonaqlar “Necə ola bilər ki, 2-3 nəsil bu baletlə tanış olmayıb?”, - deyə təəccüblənirdilər. Mən onlara cavab verməyə söz tapmırdım. Qoy bu suala baletin səhnəyə çıxmasına mane olan məmurlar cavab versinlər. İsraildən gənə qonaqlar - köhnə bakılılar “Görəndə ki, “Məhəbbət əfsanəsi”nin afişası vurulub, biz təyyarə biletimizi dəyişdik” deyirdilər. Arif müəllim çox sərt və düz adam idi. Qorbaçova iclasda “qatil” demişdi. Çətin xarakterli idi, amma saflığını, vətənpərvərliyini bilən insanlar ona yüksək qiymət verirdilər. Heydər Əliyev Fondunun baleti səhnəmizə qaytarmaq təşəbbüsü çox təqdirəlayiqdir. Onların peşəkar komandası 24 saat çalışırdı. Fond baletin səhnəyə çıxmasına böyük vəsait sərf edib. Artıq o dekorasiyaların, kostyumların hamısı özümüzdə qalacaq. Bundan sonra bu əsəri öz gücümüzlə - öz balet ustalarımızın köməyi ilə səhnəyə qoymalıyıq. İndi baleti operanın orkestri üçün öyrənməliyəm. Oktyabrın 24-də baleti Heydər Əliyev Sarayında yenidən səhnəyə qoyacağıq. Bu o deməkdir ki, balet artıq repertuara daxil oldu. Teatr təmirdən çıxandan sonra tamaşanı ildə bir neçə dəfə təqdim edəcəyik. Çünki bu, ölməz əsərdir.

CIDIR DÜZÜNDƏ “QARABAĞ ŞİKƏSTƏSİ”

● Siz eyni həyəcan və qüruru Şuşada - “Xarı bülbül” festivalında “Qarabağ şikəstəsi”ni ifa edərkən də yaşamışdınız...

● O tarixi gün idi. Bu əsər atamın vəsiyyəti idi: “Mən görməsəm, əsəri Cıdır düzündə səsləndir” demişdi. “Qarabağ şikəstəsi” vətəninə qovuşdu. Orada mistik nüanslar vardı. “Qarabağ şikəstəsi” səslənəndə səmada görünən qartalın qanad çalıb uçması... O kimin ruhu idi? Üzeyir bəyin, Bülbülün, Zülfinin, Süleyman Ələsgərovun, Vasif Adıgözəlovun? Onlar bu günü görmədilər. Arif Məlikov da Şuşanın azadlığını görmədi. 90-cı ildən sonra atam nə yazıbsa hamısı Qarabağ mövzusundadır. “Qəm karvanı”, “Qarabağ şikəstəsi” oratoriyası, “Natəvan” operası, “Şuşam lay-lay” mahnısı. Çünki Qarabağ bizim acımız idi. İndi artıq qələbələrə alışmışıq. Hər il bir yeni qələbə gözləyirik. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Biz Ali Baş Komandanın ətrafında yumruq kimi toplaşmalıyıq. Mürəkkəb geopolitik bölgədə qrossmeyster olmaq lazımdır. İlham Əliyev bu tarixi qızıl hərflərlə yazır. Bizim nəsil bunu gördü.

> “Arif müəllim çox sərt adam idi. Qorbaçova iclasda “qatil” demişdi. Çətin xarakterli idi, amma saflığını, vətənpərvərliyini bilən insanlar ona yüksək qiymət verirdilər.”

“HANSI BƏSTƏKARLIQ MƏKTƏBİNİN BELƏ NÜMUNƏLƏRİ VAR?”

● Sadaladıqlarınızdan Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Arif Məlikov kimi sənətkarlarla müsahibələr etməyim yadıma düşür. Siz isə daha kimləri görməmisiniz? Bu mənada daha xoşbəxtsiniz...

● Bu, bizim taleyimizdir. Maestro Niyazi sağ olsaydı, bütün dünyanı fəth etmişdi. Amma bizim dövrümüzdə sərhədlər açıldı. Böyük səslənməsin, mən ilk azərbaycanlıyam ki, Vyanada Musiqi Akademiyasında təhsilimi davam etdirdim. Sovet dövründə “Arena de Verona”da azərbaycanlı dirijorun dirijorluq etməsi kimi ağlına gələrdi? Bu, İtaliyanın ən məşhur və böyük salonu olan arenasıdır. Biz onu tamaşaçılarla doldurduq. Bu, musiqimizin dünyaya çıxmasıdır. Görəcək çox işlər var. “Koroğlu”, “Sevil” “Natəvan”, “Yeddi gözəl”, “Min bir gecə”, “İldırımlı yollarla” kimi əsərləri dünyanın istənilən səhnəsində qoya bilərik. Hansı bəstəkarlıq məktəbinin belə nümunələri var? Əsl mədəniyyət savaşı bundan sonra başlayacaq. Biz gərək bütün dünyaya sübut edək ki, mədəniyyətimiz budur, biz buyuq!

“BİZ “ÜMUMİ CƏRRAH”IQ”

● Dirijor üçün hansı səhnədə olmağın - opera, balet və ya simfonik konsertdə idarə etməyin kriteriyaları varmı?

● Peşəkar dirijor üçün bu, fərq etmir. Bizim diplomumuzda “opera-simfonik dirijoru” yazılıb. Əgər dirijor peşəkardırsa, həm operaya, həm baletə, həm simfonik konsertə dirijorluq edə bilər. Eyni zamanda, həm hərbi orkestri, həm xor kapellasını idarə etməlidir. Biz “ümumi cərrah”ıq.

● Həm də deyirlər ki, dirijor minaaxtaran kimidir. Bir dəfə səhv etdinsə...

● Səhv eləmək olmaz. Dirijor səhv edən kimi orkestr onu dərhal tutacaq. Dirijor səhv etdisə, nüfuzu düşür. Texniki nəsə ola bilər, amma interpretasiyada, əsərin quruluşunda, fikrində, dramaturgiyasında səhv olsa, onu heç kim bağışlamayacaq.

● Bəs orkestrin çoxsaylı üzvləri ilə münasibətinizi necə qurursunuz? Kollektivi idarə edərkən demokratiyaya can atırsınız, yoxsa daha çox diktatorluğu seçirsiniz?

● Qızıl ortanı tapmağa çalışıram. Tam diktator olsan, musiqiçilər sənə nifrət edəcəklər. Demirəm ki, sevsinlər, amma hörmət olmalıdır. Hörmət olmasa musiqiçilər əllərindən gələni ortaya qoymayacaqlar. Onda da keyfiyyət olmayacaq. Bu iki gün ərzində hamı dedi ki, simfonik orkestri tanımaq mümkün deyildi. 75-80 nəfərin hamısı öz imkanlarından daha yüksək ifa etdi - hamı ürəyini qoydu. Əgər diktator gəlib orkestrin qarşısında dursa, musiqiçilərlə sərt rəftar etsə, xətirlərinə dəysə, ifaçı formal çalacaq, sən onu məcbur edə bilməzsən, həmçinin o həyəcanı da ala bilməyəcəksən. Tam demokratik olmaq da alınmır, çünki orkestr ordu kimidir. Sən gərək atalıq edəsən. Orkestr ailədir. Maestro Niyazi orkestrə atalıq edirdi. Çünki Niyazi musiqiçiləri, onlar da onu sevirdi.

“HEÇ BİR SƏHNƏ FİLARMONİYANIN SƏHNƏSİ QƏDƏR DOĞMA OLA BİLMƏZ”

● İşlədiyiniz, çıxış etdiyiniz səhnələrin sayı çoxdur. Özünüzü harada daha rahat hiss edirsiniz? Yoxsa öz işinin ustası üçün səhnənin fərqi yoxdur?

● Ən doğma səhnə Filarmoniyanın səhnəsidir. Çünki ora mənim ilk səhnəmdir. 1989-cu ildə Vətənə qayıdanda fəaliyyətimə o səhnədə başlamışam. Dörd ay keçəndən sonra 20 Yanvar hadisələri baş verdi. Taleyimiz dəyişdi. 1991-ci ildə mən Simfonik Orkestri Moskvaya aparanda 20 Yanvar şəhidlərinin 1-ci ildönümü idi. “Qarabağ şikəstəsi” oratoriyasını Moskvada ifa etdik. Onda orkestrin rəhbəri idim və 1998-ci ilə qədər bu vəzifədə çalışdım. 35 il ərzində çox səhnələrdə çıxışlar etdim. Heç bir səhnə Filarmoniyanın səhnəsi qədər doğma ola bilməz.

● İşiniz kifayət qədər çoxdur: konsertlər, qastrollar... Pedaqoji işə necə vaxt tapırsınız?

● Bakıda olanda mütləq auditoriyadayam. Mütləq tələbələrim ətrafımdadır. Çünki mənə öyrədiblər, mən də öyrətməliyəm. Oğlum konservatoriyaya - dirijorluq şöbəsinə daxil oldu. Nə qədər mane olmağa çalışdım, alınmadı. Bir tərəfdən istəyirəm - 4-cü nəsil olacaq. Digər tərəfdən, istəmirəm, kədərlənirəm. Bizim həyatımız asan deyil...

● Sizin vaxtınızda olduğu kimi tələbələrdə entuziazm varmı?

● Entuziazm var, amma bizim opera simfonik dirijorluq fakültəmiz yoxdur.

● Niyə, yaratmaq çətindir?

● Heç çətin deyil... Ona görə uşaqlar gedib orada-burada oxuyurlar. Gənc dirijorlarımızın hərəsi bir yerdə təhsil alıb. Xor dirijorluğu fakültəsi var, opera simfonik dirijorluq fakültəsi yoxdur. Özbəkistanda var, Qazaxıstanda var, Gürcüstanda var, Azərbaycanda yoxdur. Niyə yoxdur? Cavabını məndən soruşmayın.

Bu, bilirsiniz hansı suala bənzəyir? Niyə Arif Məlikovun baleti 50 il Vətəndə səhnəyə qoyulmayıb?

Fotolar: Sabir Məmmədov/Global Media Group

HƏR ŞEY KEYFİYYƏTƏ BAĞLIDIR

● Bizim publikanı necə dəyələndiririsiniz? Məsələn, deyirlər simfonik musiqini başa düşmək çətindir, insanlar şouya meyl edir və s.

● Klassik musiqi elitardır. Bu, heç vaxt kütlə mədəniyyəti ola bilməz. Bəzən deyirlər ki, Moskvada konsert zamanı salonlar dolur. Nəzərə almaq lazımdır ki, Moskvanın əhalisi 20 milyondur. Amma “Məhəbbət əfsanəsi”ndə zalı gördünüz. Keyfiyyətli tamaşa olsun, səviyyəsi yüksək, dekorları, musiqisi, səsləri gözəl olsun - görün zal dolur, ya yox. Necə olur “Leyli və Məcnun” 100 ildən çoxdur səhnədədir?

● Siz tamaşaçıdan çox sənətçiləri qınayırsınız. O mənada ki, tamaşaçıya yaxşı sənət nümunəsi təqdim etmək lazımdır...

● Mütləq... Hər şey keyfiyyətə bağlıdır. Mən keyfiyyət qurbanıyam. Keyfiyyət olmayan yerə ömrümdə addım atmaram. Uzun illərdir ki, istədiyimiz dekorları, kostyumları əldə edə bilmirdik, amma musiqi naminə çalışırdıq. Tamaşaçıya keyfiyyətli sənət nümunəsi versən, o, həmişə zalda olacaq. Çox maraqlıdır, bizim bircə dənə klassik musiqi radio kanalımız yoxdur. Bütün dünyada, məsələn, Baltikyanı ölkələrdə 24 saat çalışan 2-3 klassik musiqi kanalı var. Kanallara tamaşa edin, hər cür insanları efirə çıxarırlar. Bizim mədəniyyət axı bu deyil. Hərə öz işini doğru görsə, öz xalqına, Vətəninə layiqincə xidmət etsə, yaxşı nəticələr də olar. Biz bir iz qoymalıyıq. Bizdən əvvəlki kişilər iz qoyub gedib, biz də qoymalıyıq...

POMİDORU QƏFİL BAHALAŞDIRAN NƏDİR?

Daxili bazarda pomidorun qiymətində ikiqat artım müşahidə olunur. Satıcılar da bildirirlər ki, payız mövsümündə heç vaxt pomidor builki kimi kiloqramı 5-6 manatdan təklif olunmayıb. Ekspertlər isə bu cür kəskin bahalaşmanı bir neçə səbəblə əlaqələndirirlər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son günlər bazarlarda pomidor kəskin şəkildə bahalaşıb. Əvvəl kiloqramı 2-3 manata olan pomidor hazırda alıcılara 5-6 manata təklif olunur. Satıcılar deyirlər ki, əvvəlki illərdə payızda pomidorun qiyməti heç vaxt belə olmayıb. Hətta qışda belə "bundan ucuz olurdu" deyənlər də var. Bəs bu il nə baş verdi ki, pomidor birdən-birə bu qədər bahalaşdı?

BAHALAŞMA MÜVƏQQƏTİDİR?

İqtisadçı Cəfər İbrahimli bahalaşmanı mövsüm ilə əlaqələndirir: "Keçən ilin eyni dövrü ilə müqayisədə bu il qiymətlər həqiqətən çox yüksəkdir. Azərbaycan pomidoru Rusiya bazarına ixrac olunur. Amma builki rəqəmlərə baxdığımız zaman keçən ilin eyni dövrü ilə müqayisədə ixracda demək olar ki, dəyişiklik yoxdur. Yəni məhsul xarici bazarlara getməyib. Daxildə qiymətin bu cür dəyişməsi isə göstərir ki, bazara çıxan məhsul həddindən artıq azdır. Bunun da az olmasının səbəbi açıq tarlada becərilən məhsulun azlığıdır. Böyük ehtimalla istixanalardakı pomidorun bazara çıxmasında gecikmələr baş verib. Bununla bağlı olaraq qiymətlər qısa müddətlik belə arta bilər. Burada başqa səbəbin olması mümkün deyil".

Cəfər İbrahimli

İNFLYASİYA SƏBƏB DEYİL

C.İbrahimlinin fikrincə, inflyasiya olsa da, bu qədər qiymət artımına səbəb ola bilməz: "Düzdür, keçən illə müqayisədə inflyasiya da müşahidə olunur. Xərclərdə, maya dəyərində, məhsulun istehsalında, hər yerdə müəyyən qədər qiymətlərin artımı görünür. Amma inflyasiya bu qədər kəskin qiymət dəyişməsinə səbəb ola bilməz. İqtisadi olaraq bəlli bir dönəm üçün, mövsümlə əlaqədar olaraq məhsul təchizatında azalma olduğunu düşünürəm".

BAZARA ÇIXIŞ İMKANLARI MƏHDUDDUR

İqtisadçı Pərviz Heydərov dedi ki, bahalaşmada son vaxtlar havaların yağmurlu keçməsi, bəzi regionlarda sellərin müşahidə olunması da rol oynaya bilər. Amma bu, əsas faktor ola bilməz: "Sentyabrın əvvəlində yağışlar çox oldu. Müəyyən təbii amillər də iş prosesinə təsir etdi. Amma bu, o qədər də uzun müddət davam etmədi. "Haranısa sel suları apardı, aqrar istehsal ilə məşğul olanların məhsulunu dolu, külək məhv etdi, ona görə qıtlıq yaranıb", - demək düzgün olmaz. Düzdür, yağışlar məhsuldarlığa ziyan vurub, amma ölkədə elə irimiqyaslı bir təbii fəlakət baş verməyib. Ona görə də bahalaşmanı sırf bununla əlaqələndirmək düzgün deyil. Həm də bu cür təbiət hadisələri əvvəlki illərdə də baş verib. Amma belə qiymət artımı müşahidə edilməyib. Bu məhsulun qiymətinin baha olmasına heç də qıtlıq, az olması səbəb deyil. Səbəb sırf bazara çıxış imkanları ilə əlaqədardır".

Ekspert qeyd etdi ki, fermerlər bu məhsulların bir qismini daxili bazarlara verməkdə çətinlik çəkirlər: "Hazırda bazarlara məhsul çıxarmaq əlçatan deyil. Fermerlərin əlində külli miqdarda məhsul qalıb. Bazara çıxara bildiklərini də baha qiymətə satmağa çalışırlar. Tələb və təklif nisbəti arasında problemlər ortaya çıxdığından qiymətlərdə bu cür yüksəlmələr müşahidə olunur. Bu problemin gələcəkdə də davam edəcəyi gözlənilir. Yaxşı olardı ki, hökumət bu subyektiv problemləri həll etmək üçün müvafiq tədbirlər görsün".

Pərviz Heydərov

KƏSKİN BAHALAŞMA OLMAYACAQ

P.Heydərovun fikrincə, son bir aydır inflyasiya da yüksəlməyə başlayıb, bunun da səbəbi enerji daşıyıcıları ilə bağlıdır: "Bahalaşma və ya ucuzlaşma haqqında dəqiq fikir söyləmək mümkün deyil. Çünki inflyasiya son aylarda səngiyib. Amma səngimə sürətli olduğu üçün yenidən bahalaşmanı müşahidə edə bilərik. Çünki bir ara dünyada enerji daşıyıcılarının qiyməti ucuzlaşdı. Bu da dünyada ərzaq, istehlak bazarında qiymətlərin aşağı düşməsinə şərait yaratdı. Amma son bir aydır yenidən enerji qiymətləri yüksəlməyə başlayıb. Yəni, ucuzlaşma müşahidə ediləcəyi gözlənilmir. İstixana pomidorlarına gəldikdə, qiymətin aşağı düşəcəyini proqnoz etmək mümkün deyil. Bunu yalnız qarşıdakı aylarda görə bilərik. Amma kəskin bahalaşma olacağını da söyləmək olmaz".

İqtisadçı Rəşad Həsənov isə hesab edir ki, bahalaşmanın müxtəlif səbəbləri ola bilər. "Çox güman ya təchizatda problem var, ya da Rusiya bazarlarına daha çox məhsul daşınır", - deyə o bildirib.

Rəşad Həsənov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2544
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

NİKAHLARIN, DOĞULAN KÖRPƏLƏRİN SAYI AZALIR, BOŞANMALAR İSƏ ARTIR

DEMOQRAFİK FƏLAKƏTƏ DOĞRU...

Açıqlanan rəsmi statistikaya istinad etsək, ölkədə boşanmalar çoxalır, nikahlar azalır, cins nisbəti pozulur, qocalma sürətlənir. Ekspertlər hesab edirlər ki, bu statistika həyəcan təbilidir. Demoqrafik fəlakətlə üz-üzə gəlməmək üçün indidən tədbirlər görülməlidir.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda nikahların, doğulan körpələrin sayı azalır, boşanmalar isə artır. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1 000 nəfərinə nikahların sayı azalaraq 5,8-dən 4,8-ə düşüb, boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb. Cari ilin yanvar-iyun aylarında ölkə üzrə 53 min 918 doğulan körpə qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici azalaraq 12,2-dən 10,7-yə düşüb. Ölkədə doğulanlar arasında cins nisbətinin pozulmasını da nəzərə alsaq, vəziy-yətin nə dərəcədə kritik olduğu açıq görünür. Bəs nə etməli? Belə davam edərsə, gələcəkdə hansı fəsadlarla qarşılaşa bilərik?

ZORAKILIQ, ERKƏN NİKAH, SOSİAL ŞƏBƏKƏLƏR...

Əvvəlcə boşanmaların sayının artması və nikahların azalmasından başlayaq. Məlumdur ki, Azərbaycan ailə institutu uzun illərdir nümunəvi model hesab olunub. Hazırkı statistika isə bu modelin sarsılmağa doğru getdiyini göstərir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Rafiq Mahmudov hesab edir ki, ailə institutuna ənənəvi problemlərlə yanaşı, son illər sosial şəbəkələr ciddi şəkildə təsir edir. Mütəxəssisin sözlərinə görə, boşanmaya səbəb olan digər faktorlar zorakılıq, övlad sahibi olmamaq və erkən nikahlardır: "Boşanmalarda tərəflər əksər hallarda xarakter uyğunsuzluğunu əsas gətirirlər. Araşdırdıqda, digər problemlər özünü büruzə verir. Əksər ailələrdə ərlə arvad vaxtlarının çoxunu sosial şəbəkədə keçirir, bu da ailə üzvləri arasında ünsiyyəti azaldır, nəticədə ailədaxili münaqişə üçün bünövrə yaradır".

XİLASKAR - AİLƏPSİXOLOQU, AĞSAQQALLAR İNSTİTUTU

Qurum rəsmisi düşünür ki, problemin həll yolu ağsaqqallar institutunun formalaşması və ailə psixoloqlarının fəaliyyət göstərməsidir: "Əvvəllər ailələrin möhkəmlənməsində mühüm rolu ağsaqqallar institutu oynayırdı. Hazırda bu institutun fəaliyyəti iri şəhərlərdə müşahidə olunmur, rayon və kəndlərdə isə qismən də olsa, qalır. Bu gün insanların psixoloji problemlərlə daha çox rastlaşdığını görürük. Komitə olaraq hazırda bu sahədə bir sıra işlər aparırıq. Qurum ailə psixoloqu institutunun yaradılmasında maraqlıdır. Çalışırıq ki, həmin institutu Azərbaycanda tam olaraq formalaş-dıraq".



NİKAHI İKİNCİ PLANA KEÇİRƏN FAKTOR

Nikahların azalmasına gəldikdə isə, mütəxəssis vurğulayır ki, hazırda gənclərin prioriteti ailə qurmaq yox, karyeradır: "Nikahlar daha çox orta yaş dövrünə qədər, yəni 24-30 yaşlarda olan şəxslər arasında bağlanır. Müşahidələrimiz göstərir ki, gənclərin prioriteti ailə qurmaq yox, daha çox təhsil almaq, karyera qurmaqdır. Nəticədə nikahın bağlanması ikinci plana keçir. Hazırda ən çox nikah bağlanma yaşı 28-dən yuxarıdır".

Demoqrafiyanı təhdid altına qoyan növbəti yaralı yerimiz gender əsaslı cins seçiminə (GƏCS) görə dünyada birinci yerdə olmağımızdır. Dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya görə, 100 qıza 102-106 oğlan nisbətindədir. Hazırda Azərbaycanda bu rəqəm 100 qıza 112 oğlan nisbətindədir. Yəni, qızların sayı azalır, oğlanlar çoxalır. Açıqlanan sonuncu statistika da bunu bir daha sübut edir. Ötən illə müqayisədə doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının isə 46,8 faiz olub. Bəs bunun fəsadları nədir?

Rafiq Mahmudov

OĞLAN UŞAQLARININ SAYI QIZLARDAN XEYLİ ÇOX OLARSA, NƏ BAŞ VERƏR?

BMT-nin Əhali Fondunun (UNFPA) hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam edərsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12000-15000 nəfər çox olacaq. Fondun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev müsahibəsində bildirib ki, hər 100 qıza nisbətdə 112 oğlanın doğulması gələcəkdə oğlanlarının sayının qızlardan xeyli çox olması deməkdir. Bunun isə fəsadları ağır ola bilər: "Cins nisbətinin pozulması nəticəsində kişilərin sayının çoxalması təhsildə daha kəskin gender fərqi, əmək bazarında qadınların xüsusi çəkisinin azalması, ictimai həyatın bütün sahələrində kişilərin sayının kəskin artması (maskulinizasiya), eyni zamanda ölkədə zorakı davranış hallarının geniş yayılması nəticəsində ümumi kriminogen durumun ağırlaşması, qızqaçırma, erkən nikahlar, insan alveri və s. bu kimi mənfi hallara səbəb ola bilər".

Fərid Babayev

DOĞULAN UŞAQLARIN AZLIĞI QOCALMA TENDENSİYASINI SÜRƏTLƏNDİRİR

Həmçinin, ölkədə yeni doğulanların sayının azalması əhalinin qocalma tendensiyasına da təsir edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Rafiq Mahmudov deyir ki, hazırda dünya bu problemlə mübarizə aparır. Azərbaycanda da çoxuşaqlı ailələrdən azuşaqlıya keçid, nikahların azalması, doğulan uşaqların azlığı bu tendensiyanı sürətləndirir: "İnkişaf etmiş ölkələrdə yaranmış disbalansı bərpa etmək üçün miqrasiya siyasəti həyata keçirilir. Xaricdən olan gənc kadrları öz ölkələrinə cəlb edirlər. Ölkədə təbii artımda azalmaların baş verməsi demoqrafiyamızı ciddi şəkildə zərbə altında qoya bilər".

Sonda mütəxəssislər vurğulayırlar ki, demoqrafik fəlakətlə üz-üzə gəlməmək üçün artıq tədbirlər görülməlidir. Çünki bu statistika həyəcan təbilidir.

3 BRANDON HALL GROUP EXCELLENCE AWARDS

AZERCONNECT NÜFUZLU MÜKAFATA LAYİQ GÖRÜLÜB

Azərbaycanda İKT və yüksək texnologiyalar sahələrində lider şirkətlərdən biri olan Azerconnect üç müxtəlif kateqoriya üzrə nüfuzlu Brandon Hall Group Mükəmməllik Mükafatına layiq görülüb. Azerconnect "Gələcək Fəaliyyət" üzrə Qızıl, "Müxtəliflik, Bərabərlik və İnklüzivlik" üzrə Gümüş, "İnsan Resursları" kateqoriyasında isə Bürünc mükafatlarını əldə edib.

Azerconnect şirkəti əldə etdiyi mühüm nailiyyətlərin davamı olaraq və əmək bazarında öz mövqeyini bir daha təsdiqləyərək icra etdiyi "İşçi Heyəti üçün Məsafədən İş Rejiminin İdarə edilməsini təmin edən proqramı" (FLEXcellence: Azerconnect-in hibrid iş rejimi proqramı) üzrə ən Yaxşı İrəliləyişinə görə qızıl, "Müxtəliflik, Bərabərlik və İnklüzivlik Təşəbbüslərdə" (INSPIRE. LEAD. CREATE: Azerconnect-in qadınların hüquq və imkanlarının genişləndirilməsi üzrə proqramı) ən Yaxşı İrəliləyişinə görə gümüş, "Ən Yaxşı İmtiyaz, Sağlamlıq və Rifah Proqramına" (Feel the Customer: Azerconnect şirkətinin çağrı mərkəzi/ön ofis komandaları üçün rifah proqramı) görə isə bürünc mükafatları alıb.

Brandon Hall Group Mükəmməlik Mükafatı tədris və inkişaf, istedadların idarə edilməsi, liderliyin inkişafı, istedadların cəlb edilməsi, insan resursları, satış nəticələri, müxtəliflik, bərabərlik və inklüzivlik, eləcə də gələcək fəaliyyət baxımından əldə edilmiş ən yaxı təcrübələrə görə təşəbbüsləri dəyərləndirir. "Azerconnect şirkətinin ölkəmizdə İKT və yüksək texnologiyalar sahəsində həyata keçirdiyi innovativ layihələrin beynəlxalq nüfuzlu şirkətlər tərəfindən mükafatlandırılması təqdirəlayiq haldır. Şirkətimiz insan resurslarının idarə edilməsi, ən son texnologiyaların ölkəyə gətirilməsi və tətbiqi istiqamətində öz fəaliyyətini daha da gücləndirəcəkdir" - deyə Azerconnect şirkətinin Baş direktoru Emil Məsimov bildirib.

"Nüfuzlu Brandon Hall Group tərəfindən bu mötəbər mükafatlara layiq görülməkdən böyük qürur hissi keçiririk. Bu mükafatların hər biri insan resurslarının idarə edilməsinin müxtəlif aspektlərində mükəmməlliyə və hibrid biznes modelinin həyata keçirilməsinə sadiqliyimizi, müxtəlifliyi və inklüzivliyi təşviq etmək üçün fəal mövqeyimizi, eləcə də əməkdaşların rifahına yanaşmamızı özündə əks etdirir. Bu mükafata layiq görülmək bizi müstəsna performans nümayiş etdirmək üçün daha da böyük səy göstərməyə sövq edir", - deyə Azerconnect şirkətinin İnsan resursları üzrə baş müdiri Mətanət Babayeva qeyd edib.

"Mükəmməllik Mükafatının qalibləri öz əməkdaşlarına həqiqətən dəyər verən və insan kapitalının idarə edilməsi proqramları vasitəsilə onlara sərmayə yatıran təşkilatlardır. Bu insan kapitalının idarə edilməsi proqramlarının biznes dəyər və əməkdaşlara təsir baxımından ən yaxşıları olduğu sübut edilmişdir" – deyə, Brandon Hall Group Baş əməliyyat direktoru və HCM Excellence Awards proqramının rəhbəri Reyçel Kuk bildirib.

SOCAR-da "Peşəkarlar" müsabiqəsi təşkil edilib

Yeddi fərqli peşə üzrə SOCAR-ın 21 müəssisəsinin əhatə olunduğu müsabiqədə ümumilikdə 280 nəfər iştirak edib. Nəzəri test imtahanlarında hər peşə üzrə ən yüksək nəticə göstərən 20 nəfər praktiki mərhələdə iştirak hüququ qazanıb.

Azərbaycan Dövlət Neft Şirkətində (SOCAR) 20 sentyabr "Neftçilər Günü" çərçivəsində ilk dəfə "Peşəkarlar" müsabiqəsi keçirilib.

"Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, bu xüsusda, SOCAR-ın "Təhlükəsizlik", "Vahid komanda", "Davamlı inkişaf və Qayğı" kimi yeni dəyərlərinin kommunikasiyasının təmin edilməsi məqsədilə bir sıra fərdi və komanda yarışları təşkil olunub.

Yeddi fərqli peşə üzrə SOCAR-ın 21 müəssisəsinin əhatə olunduğu müsabiqədə ümumilikdə 280 nəfər iştirak edib. Nəzəri test imtahanlarında hər peşə üzrə ən yüksək nəticə göstərən 20 nəfər praktiki mərhələdə iştirak hüququ qazanıb. Müsabiqədə "Azneft" İstehsalat Birliyindən 8, "Neftqaztikinti" trestindən 5, Təhlükəsizlik idarəsindən isə 3 nəfər olmaqla, hər peşə üzrə 8 fərqli müəssisədən 21 nəfər qalib olub.

FƏRQLƏNƏN ƏMƏKDAŞLAR MÜKAFATLANDIRILIBLAR

SOCAR-ın Baş ofisində keçirilən müsabiqədə çıxış edən SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva bütün iştirakçılara təşəkkürünü bildirib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Praktiki mərhələdə iştirak edən bütün əməkdaşlara sertifikat və hədiyyələr təqdim olunub, fərqlənən əməkdaşlar mükafatlandırılıb.

Müsabiqənin son günündə keçirilən komanda oyunlarında qalib adını qazanan "Dostluq" komandasının üzvlərinə pul mükafatı verilib.

Pilot layihə olan müsabiqə iştirakçıların çalışdıqları müəssisələrdə biznes proseslərinə fayda verməklə yanaşı, şirkət üzrə sağlam və dinamik iş mühitinin formalaşdırılmasına töhfə vermək məqsədi daşıyır.

Sərsəng su anbarı nəzarətə götürüldü

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin əməkdaşları artıq Sərsəng su anbarına nəzarət edirlər. "Report" xəbər verir ki, bu barədə Agentlik məlumat yayıb. Xatırladaq ki, ordumuzun şanlı qələbəsindən sonra su anbarı nəzarətimizə keçib. 1976-cı ildə Tərtərçayın üzərində tikilmiş Sərsəng su anbarının ümumi həcmi 565 milyon kubmetr, faydalı həcmi 500 milyon kubmetrdir. Anbarın su güzgüsünün sahəsi 1 346 hektar, sahil xəttinin uzunluğu 50,25 km-dir. Sərsəng su anbarında toplanan su ilə Tərtər, Ağdərə, Ağdam, Ağcabədi, Yevlax, Bərdə, Goranboy rayonlarının ümumilikdə 95 min hektar əkin sahəsi suvarma suyu ilə təmin olunacaq.

ARTIQ NİSYƏ MAL ALA BİLMƏYƏCƏYİK?

“Kredit büroları haqqında” qanuna edilən dəyişiklik insanlar arasında çaşqınlıq yaradıb. Nisyə ticarət edənlərlə bağlı cərimələrin tətbiqini nəzərdə tutan məlum dəyişikliyin hədəfi və əhatə dairəsi isə tam başqadır. Ekspertlər düşünürlər ki, bu qanun kredit fəaliyyətlərinin daha şəffaf həyata keçirilməsinə gətirib çıxaracaq. Lakin bu şəffaflıq qiymət artımlarına da səbəb ola bilər.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda nisyə mal alqı-satqısı ilə məşğul olanlarla bağlı yeni cərimələr müəyyənləşib. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə əsasən, “Kredit büroları haqqında” qanunun tələblərinə uyğun kredit tarixçələrini təşkil edən məlumatın kredit bürosuna müəyyən olunmuş qaydada, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə vəzifəli şəxslər 1 500 manatdan 2 000 manatadək məbləğdə, hüquqi şəxslər 10 000 manatdan 12 000 manatadək cərimə ediləcəklər.

NEQATİV MƏLUMATLARI MƏHKƏMƏLƏR DƏ ÖTÜRMƏLİDİRLƏR

Hüquqşünas Ceyhun Cəfərli qanunun niyə qəbul olunduğunu, nəyə xidmət etdiyini açıqladı. Bildirdi ki, bu qanun təşkilatların, şirkətlərin özünə faydalıdır: “Kredit büroları haqqında” qanun 2016-cı ildə qəbul edilib. Bu qanunun qəbul edilməsində məqsəd hüquqi və fiziki şəxslərin kredit öhdəlikləri üzrə, cari və ödənilmiş borclarının, ipoteka, girov, saxlanc haqqında məlumat bazasının yaradılması, beləliklə, sabit maliyyə siyasətinin formalaşdırılması idi. Fiziki və hüquqi şəxsin borc öhdəlikləri barədə məlumatların hamısı kredit bürolarına ötürülməlidir. Bu məlumatlar portala elektron qaydada yüklənməlidir. Kredit büroları məlumatları toplayan, saxlayan, analiz edən təşkilatdır. O, bunları Mərkəzi Bank, sığorta şirkətləri, təkrar sığortaçılar - lizinq təşkilatları, kommunal xidmətlər göstərən təşkilatlar, rabitə xidmətləri, mobil operatorlar, mənzil-tikinti kooperativləri, iri ticarət mərkəzləri və lombardlardan toplayır. Məsələn, bir bank sizə kredit vermək istəyir və ya lizinq şirkəti avtomobil satır. Həmin şirkət haradan bilsin ki, maliyyə məsələləri ilə bağlı pozitiv və neqativ məlumatlarınız necədir? “Kredit büroları haqqında” qanunda var ki, neqativ məlumatları məhkəmələr də ötürməlidirlər. Məsələn, şəxs aliment borcunu, yaxud zərər vurmaqdan irəli gələn bir borcu ödəmir. Bu halda ona digər yerlərdə də kredit verilmir. Bu, insanların maliyyə intizamını gücləndirmək, məsuliyyət yaratmaq üçündür”.



QANUN MƏİŞƏT TİPLİ NİSYƏ MAL SATIŞINA AİD DEYİL

Hüquqşünas qeyd etdi ki, qanunda anlaşılmayan məsələ onun kimlərə şamil olunmasıdır. Bəzi insanlar elə bilirlər ki, bu, məişət tipli nisyə mal satışına da aiddir. Əslində isə burada müqavilə ilə kredit verən təşkilatlar nəzərdə tutulur: “Bu dəyişiklik qanunun tətbiqi zərurətindən irəli gəlir. Yəni, bir çox təşkilatlar qeyd olunan məlumatların açıqlanması tələbindən yayınırdılar. Amma unutmayaq ki, bu məlumatlardan yenə də şirkətlər özləri qarşılıqlı şəkildə faydalanacaq. Belə halda sabit maliyyə siyasəti həyata keçiriləcək. Şəxslərin maliyyə imkanlarına çıxışı bu məlumatlardan asılı olacaq. Həmçinin, məhkəmələrə qədər gedib çıxan məsələlərin də sayı azalmış olacaq. Sahibkarlar da qorunmuş olacaqlar. Lakin bu qanun kiçik sahibkarlara, məhəllə marketlərinə yox, qanuni müqavilə ilə tənzimlənən, rəsmi şəkildə nisyə mal satan şəxslərə aiddir”.

Ceyhun Cəfərli

“O DEMƏK DEYİL Kİ, NİSYƏ SATIŞ OLMAYACAQ”

İqtisadçı Eyyub Kərimli şirkətlərin niyə qanuna əməl etmədikləri məsələsinə aydınlıq gətirdi. Onun sözlərinə görə, onlar bunu edərək məhsulun üzərinə faiz əlavə edib, əlavə gəlir qazanırlar: “Bu qanun insanlar arasında ajiotaj yaradıb. Amma əslində məsələnin fiziki şəxslərə çox da aidiyyəti yoxdur. Kimsə rayonda nisyə mal satırsa, bu qanun onlara qarşı yönəlməyib. Bu, əsasən kreditlə işləyən hüquqi şəxslərə şamil edilir. Əslində kreditlə mal satanlar üzərində gəlir götürürlər, lakin bunu elə qeyd edirlər ki, guya nisyə satışdır, əlavə pul qoymurlar. Vergidən yayınma üçün nisyə satış kimi qeydiyyata alırlar və vergi orqanlarına belə təqdim olunur. Bu halda onlar nisyə satdıqları məhsulu daha baha satırlar, üzərinə əlavə faiz qoyurlar və onun gəlirlərini gizlədirlər. Yəni, kredit kimi göstərmirlər. Bu qanun həmin halların qarşısının alınması üçündür. O demək deyil ki, nisyə satış olmayacaq. Sadəcə, məlumatların təqdim edilməməsinə görə cərimələr nəzərdə tutulub. Qanun barəsində məlumat az olduğu üçün insanlar arasında ajiotaj yaranır”.

Ekspertin fikrincə, əgər təşkilatlar məlumatları düzgün ötürərlərsə, bu halda qanun düzgün işləyəcək və insanların kredit məlumatları daha aydın şəkildə göstəriləcək: “Bu dəyişiklik vətəndaşlara təsir etməyəcək. Vergidən yayınma hallarının qarşısı alınacaq. Artıq vətəndaş hər hansı bir mağazadan, yaxud digər bir yerdən kreditə məhsul alanda rəsmi kredit tarixçəsində əks olunacaq ki, şəxsin krediti var”.

MƏHSULLARI KREDİTLƏ DAHA BAHA ƏLDƏ EDƏCƏYİK

İqtisadçı dedi ki, bu yeniliyin tətbiqindən sonra bəzi sahibkarlar bazardan çıxacaqlar, lakin bu, iqtisadiyyata təsir etməyəcək: “İndiyə qədər qeyri-rəsmi fəaliyyət göstərən kommersiya subyektləri ya fəaliyyətlərini rəsmiləşdirəcək, ya da işlərini dayandıracaqlar. Fəaliyyətini rəsmiləşdirməyən sahibkarlar bu sahədə artıq işləyə bilməyəcəklər. Lakin bazar böyük sarsıntı yaşamayacaq. Çünki əksər hallarda daha çox böyük şirkətlərin bu fəaliyyətlə məşğul olduğunu görürük. Onların da fəaliyyətlərini məhdudlaşdıracağını düşünmürəm. Bu baxımdan hesab etmirəm ki, istehlakçıya təsir etsin. Əksinə, istehlakçı daha zəmanətli, keyfiyyətli xidmət əldə edəcək. Sadəcə, qiymətlərdə artım müşahidə edilə bilər. Kreditlə olan məhsulları bir az baha əldə edəcəyik. Çünki rəsmiləşdirmədə xərclər artacaq”.

Eyyub Kərimli

SƏBƏB PLASTİK ZİBİL QABLARI DEYİL

Son vaxtlar paytaxtdakı plastik zibil qablarının yanması halları ilə qarşılaşırıq. Mütəxəssislərin sözlərinə görə, belə hadisələrin baş verməsinə səbəb insanların səhlənkarlığıdır. Bu səbəbdən, zibil konteynerlərinin yanına məlumatlandırıcı lövhələr quraşdırmaq lazımdır.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Hazırda Bakıda müasir standartlara cavab verdiyi bildirilən müxtəlif zibil konteynerləri qoyulub. Plastik qablar üçün ayrı, kağızlar üçün ayrı... Lakin zibil qabları ilə bağlı bəzən xoşagəlməz hallar da ortaya çıxır. Məsələn, onların yanması kimi. Bu konteynerlər yandığı zaman ətrafdakı avtomobillərə, obyektlərə də çox ziyan dəyir. Bu günlərdə paytaxtın Əhmədli qəsəbəsi, Qaçaq Nəbi küçəsində baş vermiş yanğın hadisəsini xatırlatmaq kifayətdir. Hadisə nəticəsində iki avtomobil tamamilə yanıb. Yanğının plastik zibil qablara görə baş verdiyi güman edilir. Əvvəllər zibil qabları dəmirdən idi. Amma zamanla həmin konteynerlər yeni plastikdən olan qablarla əvəzləndi. Bu zaman sual yaranır: plastik zibil qabları nə qədər etibarlı və təhlükəsizdir?

Orxan Musayev

VAHİD QAYDALAR, STANDARTLAR YOXDUR

Təhlükəsizlik məsələləri üzrə ekspert Orxan Musayevin sözlərinə görə, zibil qabının plastik və ya dəmirdən olmasının heç bir fərqi yoxdur. Mütləq tələblərə əməl olunmalıdır: "Zibil qabları üçün yer təyin edərkən mütləq normativ tələblər nəzərə alınmalı, sanitar gigiyenik normalar gözlənilməlidir. Qabların yerləşdiyi yerin arxa və kənar hissəsində qoruyucu hasar olmalıdır. Üzəri də sukeçirməz materialla bağlanılmalıdır. Hər bir ərazi üzrə zibil qablarının sayı insan sayına uyğun formalaşdırılmalıdır. Yəni nə az, nə də çox olmalıdır. Zibil qablarının yerləşdiyi məntəqələr yaşayış mənzillərindən, uşaq və idman meydançalarından ən azı 20 metr məsafədə olmalıdır. Ətraf mühitin mühafizəsi və infeksion xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə zibillər sutka ərzində ən azı bir dəfə daşınmalıdır. Ölkəmizdə zibil qablarının təşkili və onlara nəzarətlə bağlı vahid qaydalar, standartlar heyf ki, yoxdur. Ümid edirik ki, beynəlxalq normalara əsaslanaraq vahid qaydalar qısa zamanda hazırlanacaq və tətbiqi ilə bağlı müvafiq addımlar atılacaq".

PLASTİK ZİBİL QABLARI DƏMİRDƏN DAHA ƏLVERİŞLİDİR

Ekspertin fikrincə, plastik zibil qabları dəmirdən daha əlverişlidir: "Dəmir qabların plastiklə əvəz olunmasının bir sıra müsbət tərəfləri var. Onların ən önəmlisi odur ki, plastik qutularda qapaq var. Dəmir qabların isə üstü açıq idi. Küləkli hava şəraitində və ya qablar dolduqda zibillər ətraf mühitə yayılırdı və təbiətə çox ciddi ziyan vururdu. Qarşısını almaq isə mümkün olmurdu. Plastik qablar o baxımdan əlverişlidir ki, qapaqları mövcuddur və yalnız zibil atarkən ayaq hərəkəti ilə qapağını açmaq mümkündür. Zibillərin daşınması zamanı da dəmir qablar çətinlik yaradırdı. O baxımdan ki, dəmir zibil qabı ilə plastik konteynerlər arasında ciddi çəki fərqləri var".



İNSANLAR SÖNMƏMİŞ SİQARET VƏ KİBRİT ATIRLAR

O.Musayevin sözlərinə görə, zibil qablarında yanğınların baş verməməsi üçün tədbirlər görülməlidir: "Məntəqələr ilkin yanğınsöndürmə vasitələri ilə təmin olunmalı, orada xüsusi məlumatlandırıcı və xəbərdaredici nişanların yerləşdirilməsi həyata keçirilməlidir. Həmçinin, zibil qablarından istifadə təlimatı da olmalıdır ki, insanlar hansı məişət tullantılarını atmalı olduqlarını bilsinlər. Çünki bəzi hallarda təhlükəli tullantıların zibil qablarına atılması səbəbinə görə yanğın hadisələri baş verir. Bəzi hallarda tam söndürülməmiş siqaret və kibrit çöpü atılır. Bu da öz növbəsində yanğına səbəb olur. Bu cür yanğın hadisələri baş verdikdə mütləq qaydada sudan istifadə edərək yanğının ilkin mərhələsində qarşısını almaq lazımdır ki, daha da şiddətlənib ətrafda yaşayan sakinlərə, yaşayış binalarına, obyektlərə zərər yetirməsin".

PLASTİK ZİBİL QABLARININ ÖZÜNÜN DƏ YANMA EHTİMALI VAR

Ekspert bildirdi ki, hər iki materialdan olan qabların yanğın riski eynidir: "Plastik zibil qablarının yanğına xüsusi davamlılığı yoxdur. Lakin əgər təhlükəli davranışlar baş verərsə, dəmir konteynerlərdə olan zibillər də yana bilər. Hər iki halda yanğın baş verməsi ehtimalı eynidir. Lakin plastik zibil qablarının özlərinin də yanma ehtimalı var. Ancaq plastik zibil qablarında yanğının baş vermə riski daha azdır. Çünki yanğının baş verməsi üçün üç əsas elementin olması vacibdir. Oksigen, yanan maddə, temperatur. Bu üç element birləşməlidir ki, yanğın hadisəsi baş versin. Plastik zibil qablarının da qapaqları bağlı olduğu halda orada oksigen olmur. Oksigen olmadığına görə də yanğının baş vermə riski açıq dəmir konteynerlərdə olan riskdən daha azdır".

ALMANLARI İKİ PEŞƏSİ İLƏ TƏƏCCÜBLƏNDİRƏN AZƏRBAYCANLI HƏKİM

AĞ XALATLI BƏSTƏKAR

Almaniyada yaşayan azərbaycanlı həkim Etibar Rzalı: "Bir insanın həm bəstəkar, həm də həkim olmasını almanlar anlamırlar. Deyirlər ki, bəstəkarlıq qabiliyyətin varsa, niyə illərlə əziyyət çəkib, həkim olmaq üçün saç ağardırsan?"

Onun üçün həkimlik peşə, musiqi həyat tərzidir. Deyir ki, xəstəxanada iş otağına daxil olduğu halda həkim, işi bitəndən sonra bəstəkardır. Həm insanlara şəfa verir, həm də ruha toxunmağı bacarır.

Müsahibimiz Röyanın ifa etdiyi, trendlərdə ilklərdə olan məşhur "Tez gəl" mahnısının söz yazarı və bəstəkarı, Almaniyada yaşayan azərbaycanlı həkim Etibar Rzalıdır.

9 ildir ki, Almaniyada həkimlik fəaliyyəti ilə məşğuldur. Amma biz onu Röyanın ifasında sevilən, qısa müddət ərzində məşhurlaşan "Tez gəl" mahnısı ilə tanıdıq. Gənc bəstəkarla həm həkimlik, həm də yaradıcılıq fəaliyyəti ilə bağlı söhbətləşdik.

Tovuzda həkim ailəsində dünyaya gəlib. Anası pediatr, atası kardioloqdur. Elə orta məktəbi də Tovuzda bitirib və Azərbaycan Tibb Universitetində "Müalicə işi" ixtisası üzrə təhsilini davam etdirib. 6 illik həkimlik təhsilindən sonra rezidentura üçün Almaniyaya yollanıb. Hazırda Almaniyada xəstəxanaların birində radioloqdur.

"İLK ŞEİRİMİ 13 YAŞIMDA YAZDIM"

● Etibar bəy, həkimlik ailədən gəlir, bəs bəstəkarlıq?

● Atamın babası məşhur aşıq olub. Tovuzdakı musiqi məktəbi də onun adını daşıyır. Mən də 7 il həmin musiqi məktəbinə getdim və oranı piano aləti üzrə bitirdim. Hətta 1-ci sinifdə müəlliməm müğənni Tünzalə Ağayeva idi. Həkim ailəsində böyüsəm də, şeirli, musiqili, sözlü məclislərdə olmuşam. Atam elektrik gitarada ifa edə bilir, qardaşım şeir yazırdı. İlk şerimi 13 yaşımda yazdım. Bəstəkar, şair olmaq kimi planım yox idi, hazırda da elədir. Sanki həyat özü məni o istiqamətə aparır. 15-20 ildir mahnı yazır, öz dostlarım arasında bəstələdiyim mahnıları ifa edirəm. Amma bu yolda peşəkar addım atmağa son illərdə qərar vermişəm. Həkimlik isə, həqiqətən, ailədən gəlir. Gözümü açandan həkimlər və xəstələrlə böyümüşəm. Təsəvvürümdə həkimlikdən başqa peşə olmayıb. Mənə elə gəlirdi ki, ancaq həkim ola bilərdim, oldum.

● Həkimlik fəaliyyətinizdə də yaradıcılıq qabiliyyətinizin sizə kömək etdiyini deyirsiniz. Radiologiya ilə incəsənət arasında hansı əlaqə var?

● Tibdə digər ixtisaslarla müqayisə etdikdə, radiologiya həqiqətən, mənim xüsusiyyətlərimə uyğundur. Məsələn, özümü cərrah kimi təsəvvür edə bilmərəm. Hətta həyatda qarşıma seçim qoysalar ki, ya cərrah olmalısan, ya da bu sahədən getməlisən, gedərdim. Mənim sahəmdə ağ xalatı soyunduqdan sonra işin bitir. İşdən sonra rahatlıqla hobbilərinlə məşğul ola bilirsən. Yaradıcılıqla əlaqəsinə gəldikdə isə, düşünürəm ki, radiologiyanı daha yaxşı qavramaq üçün incə və geniş baxış əhəmiyyətlidir. İncəsənət duyumu baxdığın yüzlərlə şəkillərin arasında patologiyanı görə bilməkdə çox kömək olur.

> *O vaxt „Tez gəl"i Röyanın oxuması mənim üçün əlçatmaz idi. Musiqiçi ətrafım o qədər də geniş deyildi deyə, sadəcə bir xəyal idi. Bu müddət ərzində bir çox müğənnidən gələn təklifi də rədd edib, bu günü gözləyirdim. Nəhayət, 14 il sonra mahnı ünvanına çatdı.*

"ALMANLAR BUNU ANLAMIRLAR"

● Xəstəxanada ağ xalatda piano arxasında "Alagözlüm"ü ifa etdiyiniz videonuzla rastlaşdım. Maraqlıdır, almanların musiqiçi həkimə münasibətləri necədir?

● Bəli. İş zamanı, yemək fasiləsində ifa edirdim. Həm həkimlik, həm incəsənətlə məşğul olmaq biz azərbaycanlılara daha çox məxsusdur. Çünki uşaqlıqdan musiqi ilə böyüyürdük. Bizim dövrdə əksər evlərdə piano olurdu. Hər evdə mütləq musiqi məktəbinə gedən uşaqlar var idi. Almaniyada belə deyil. Bir insanın həm bəstəkar, həm də həkim olmasını almanlar anlamırlar. Deyirlər ki, bəstəkarlıq qabiliyyətin varsa, niyə illərlə əziyyət çəkib, həkim olmaq üçün saç ağardırsan? Hətta mahnı işıq üzü görəndən sonra məndən soruşurdular ki, həkim kimi davam etmək fikrin varmı? Onlar bu sahədən gedəcəyimi düşünürdülər.

"BU GÜN ƏYNİMDƏKİ AĞ XALATIMLA XOŞBƏXTƏM"

● Həqiqətən, bir çox müğənni və bəstəkarlar var ki, həkimliyi atıb, musiqiyə yönəliblər. Siz necə düşünürsünüz?

● Düzünü desəm, bilmirəm. O barədə düşünmürəm. Məndən 15 il öncə soruşsaydılar ki, "Almaniyaya gedəcəksiniz?", deyərdim ki, yox, alman dilini öyrənmək fikrim yoxdur. Amma indi Almaniyada yaşayıram. Hazırda elə fikrim yoxdur. Bəstəkarlıq səhnə arxası, yaradıcılıq işidir. Mən işimi bitirdikdən sonra bununla məşğul oluram. İş vaxtı heç kim musiqiçi olduğumu hiss etmir. İşdən sonra da əksinə, həkim olmuram. İncəsənət vaxtımı deyil, boş vaxtımı alır. Bu gün əynimdəki ağ xalatımla xoşbəxtəm. Həkimliyi bacarıram və zövq alıram. Amma musiqisiz də dünyanın rəngsiz olduğunu düşünürəm.

● "Tez gəl"i Röyanın oxuyacağını xəyal edərək bəstələdiyinizi bildirmisiniz. Maraqlıdır, bu mahnı necə meydana gəldi?

● O mahnını necə yazdığımın hər anı yadımdadır. 2009-cu il idi. Dərs üçün bir xəstəxanadan digərinə gedəndə, yolda yazmağa başladım. Yarısını avtobusda, yarısını da xəstəxanada yazmışam. Bu mahnıda böyük sevgi, əmək var . O vaxt „Tez gəl"i Röyanın oxuması mənim üçün əlçatmaz idi. Musiqiçi ətrafım o qədər də geniş deyildi deyə, sadəcə bir xəyal idi. Bu müddət ərzində bir çox müğənnidən gələn təklifi də rədd edib, bu günü gözləyirdim. Nəhayət, 14 il sonra mahnı ünvanına çatdı. Mənim üçün məşhurluq önəmli deyildi, həmişə ortaya keyfiyyətli iş qoymaq üçün çalışıram. İstədiyim kimi də oldu.

● Bəs ailənizin reaksiyası necə oldu?

● Ailəm, dostlarım, məni tanıyan, tanımayan insanlardan müsbət reaksiyalar aldım. Təsəvvür edin, işdə gecə növbəsində olarkən, mahnını dinləyib mənə yazırdılar. Hamısı mənimlə eyni zövqü, həyəcanı yaşadılar. Bu məni çox sevindirirdi.

"HƏYATIM BƏLKƏ DƏ ƏLƏKBƏR TAĞIYEVİN HƏYATINA BƏNZƏYİR"

● Etibar bəy, maraqlıdır, işlərindən ilhamlandığınız kumiriniz varmı?

● Aygün Səmədzadə, Sezen Aksunun əsərlərini çox bəyənirəm. Çiğdem Talu kimi söz yazarı olmaq istəyərdim. Həyatımı isə bəlkə də Ələkbər Tağıyevin həyatına bənzətmək olar. O da musiqiçi olmayıb, amma "Sən gəlməz oldun" kimi şedevr yaradıb. Xəyal qursam, ona bənzəmək istəyərəm. Məni bəstəkar adlandırmaq üçün hələ tezdir. Onu zaman göstərəcək. Yazdığım sözlərdə, musiqilərdə bənzətməyə deyil, orijinallığa üstünlük verirəm. Bəzi mahnılarım mütləqdir ki, müəyyən zövqləri oxşamayacaq.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
www.kaspi.az
İDMAN
30 SENTYABR ŞƏNBƏ 2023

Arda Gülər Türkiyədə çıxış edərkən ümumilikdə 130 günü zədə səbəbindən boşa verib. "Real Madrid"dəki dövrü də üzərinə gəldikdə bu artıq 200 günü ötmüş olur. Futbolçunun hələ karyerasının əvvəlində olduğunu nəzərə alsaq, bu, olduqca çoxdur.

ARDA ZƏDƏLƏR GİRDABINDA

FAİQ TAHİROV

Arda Gülər Türkiyə futbolunun gələcək üçün ən böyük ümidi hesab olunur. 2019-cu ildə "Gənclərbirliyi"nin gənclər komandasından "Fənərbağça"ya transfer olunan orta xətt oyunçusu qısa zamanda İstanbul nəhəngində özünü təsdiqləməyi bacardı. Pillə-pillə yüksələn futbolçu 2021-ci ildə əsas komandaya cəlb olundu. Hücumun hər iki cinahında, eyni zamanda hücumameyilli yarımmüdafiəçi kimi oynamağı bacaran Gülər, ötən mövsüm bütün turnirlərdə 35 oyun keçirdi və altı qol, yeddi məhsuldar ötürmə ilə yadda qaldı.

"KRAL KLUBU"NA AÇILAN YOL

Ardanın "Fənərbağça"dakı əla performansı tezliklə Avropanın top-klublarının diqqətini çəkdi. Uzun müddət adı "Barselona" ilə hallanan gənc oyunçu yekunda Kataloniya təmsilçisinin əsas rəqibi "Real Madrid"ə üz tutdu. Başqa sözlə, onun uğrunda mübarizədən "kral klubu" qalib ayrıldı.

Bu ilin iyulunda "Real Madrid" oyunçu ilə müqavilə imzaladı. "Kral klubu" keçid üçün "Fənərbağça"ya 20 milyon avro ödədi. Bu da 18 yaşlı bir türk oyunçu üçün fantastik rəqəmdir. Əlavə olaraq 10 milyon avro bonus nəzərdə tutulub. Bundan başqa, "Fənərbağça" futbolçunun növbəti satışından 20 faiz pay alacaq.

ARZULAR VƏ REALLIQ

Arda Gülərin Madriddə xəyalları böyükdür. O, təqdimat mərasimində belə böyük klubda olmaqdan qürur duyduğunu bildirmişdi. Futbolçu qeyd etmişdi ki, "Real Madrid"in əfsanəsi olmaq istəyir.

Lakin gedişat istənilən kimi deyil. Arda hələ də İspaniya klubunun heyətində debüt edə bilməyib. Buna onun zədələri mane olur.

İyulun yeddisində madridlilərlə müqavilə imzalayan gənc futbolçu mövsümdən öncə komandanın ABŞ-dəki toplanışında zədə almışdı. Menisk probleminə görə əməliyyat olunan Gülərin sağalma prosesi əslində yaxşı gedirdi. Bir neçə gün bundan əvvəl komandanın baş məşqçisi Karlo Ançelotti açıqlama verərək Ardanın artıq zədəsini sağaltdığını bildirmişdi. Onun oktyabrın əvvəllərindən meydana çıxacağı gözlənilirdi.

Bugünlərdə isə futbolçu yenidən zədələnib. Bu dəfə onda əzələ problemi yaranıb. Zədə səbəbindən türkiyəli ulduzun üç həftə məşqlərdən kənar qalacağı bildirilir. Zədədən qayıtdıqdan sonra hazır olmaq üçün lazım gələcək müddəti də nəzərə aldıqda onun noyabrdan tez meydana çıxması inandırıcı deyil.

Jorji Jezuş

FİZİKİ BAXIMDAN PROBLEMLƏRİ VAR

Arda iyuldan bəri "Real Madrid"in 10 rəsmi oyununu artıq buraxıb. Hazırkı zədəni də nəzərə alsaq, bu mövsüm ən azı 16-17 qarşılaşmanı buraxması artıq dəqiqləşib. O, Türkiyədə çıxış edərkən ümumilikdə 130 günü zədə səbəbindən boşa verib. "Real Madrid"dəki dövrü də üzərinə gəldikdə, bu artıq 200 günü ötmüş olur. Futbolçunun hələ karyerasının əvvəlində olduğunu nəzərə alsaq, bu, olduqca çoxdur. Ardanın indi daim oynayan, məşqlərdə canfəşanlıq edib yeni klubunda heyət uğrunda mübarizə aparan, özünü inkişaf etdirən yaşıdır. Gənc oyunçunun texnikası kifayət qədər yaxşıdır. Onun ən diqqət çəkən cəhəti də məhz topla davranışı, cəldliyi, meydanı yaxşı görməsi, dəqiq ötürmələri, yaxşı zərbələridir. O, çox yaradıcıdır və oyunu rəqibləri üçün gözlənilməzdir. Eyni zamanda özünəinamı və soyuqqanlılığı onu digər bu yaşda olan futbolçulardan fərqləndirir. Lakin Ardanın fiziki baxımdan problemləri var. Bunu "Fənərbağça"nın sabiq baş məşqçisi Jorji Jezuş dəfələrlə dilə gətirib. Gənc oyunçunun yaxşı texnikasının olduğunu bildirən mütəxəssis fiziki cəhətdən artırmalı olduğunu söyləyib. Görünən odur ki, Jezuş haqlı imiş. Kifayət qədər fiziki gücü olmayan Arda "Real Madrid"də məşqlərin ağırlığına tab gətirməkdə çətinlik çəkir. Maraqlıdır ki, o, zədələrini də oyunlarda almayıb.

ARDA BU "KARVAN"DAN YAN QAÇA BİLƏCƏK?

Zədə səbəbindən istədiyi karyeraya sahib ola bilməyən bir çox futbolçu var. Düzdür, onların bəzilərini əfsanəvi oyunçular kimi xatırlayırıq, lakin zədələri olmasaydı, daha artığına nail ola bilərdilər. Məsələn, niderlandlı keçmiş hücumçu Marko van Basten ağır zədəyə görə cəmi 28 yaşı olarkən karyerasını başa vurub. Yaxud 2002-ci il dünya çempionatındakı möhtəşəm performansı yaddaşlardan silinməyən eks "Real Madrid"li Ronaldo ağır zədələr səbəbindən karyerasının ümumilikdə üç ilini futbolsuz keçirməli olub.

Madrid klubunun zədələrin mane olduğu digər oyunçusu Maykl Ouendir. İngiltərə futbolunun ən potensiallı oyunçularından birinə məhz sağlamlıq problemləri mane oldu. Vaxtilə "kral klubu"nda çıxış etmiş digər türkiyəli Hamit Altıntopu da bu siyahıya əlavə etmək olar. Madriddə son nümunə Eden Azardır. "Çelsi"dən böyük ümidlərlə transfer olunan oyunçu az qala hər həftə zədələnirdi. Siyahıya Usman Dembele, Ansi Fati kimi adları da daxil etmək olar. Hər ikisi çox potensiallı hesab olunsalar da, zədələr bunu açmağa imkan vermir.

Arda Gülər eyni problemlə üz-üzədir. Türkiyə futbolunun gələcəyi "zədəli potensiallar karvan"ına qoşulmaq istəmirsə, fiziki keyfiyyətlərini artırmağın yolunu tapmalıdır. Xüsusi rejim, fərdi fiziki məşqçi, fərdi proqram bunun həll yolu ola bilər.